QARABAĞ AZƏRBAYCANDIR!

ƏBƏDİYAŞAR LİDER!



4



Səs

№ 228 (6669) 13 dekabr 2022-ci il. Qiymət 60 qəpik

## Azərbaycan və Rusiya prezidentləri arasında telefon danışığı olub



2

# Volkov-Vardanyan "ÇVK"sı

## Artıq "bıçaq sümüyə dirənib" və heç nə əvvəlki kimi olmayacaq!



6

### Sergey Markov: "Heydər Əliyev Azərbaycanı bütün dünyaya tanıdıb"



3

### İran rəsmisi etirazçıları hədələdi-cəzalar və edamlar davam edəcək



11

### Uşaq evində böyüyən gənclərin sonrakı aqibəti necə olur?



16

### Mənzillərimiz qışa nə qədər hazırdır?



6

### Modriç: "Messini dayandırmaq çox çətin olacaq"



16

# Bu gün Azərbaycan Ümummilli Liderin müəyyənləşdirdiyi yolla inamla irəliləyir

## Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Ümummilli Lider Heydər Əliyevin məzarını ziyarət ediblər





**Müasir müstəqil Azərbaycan dövlətinin memarı və qurucusu, dünyaşöhrətli siyasi xadim, xalqımızın ümummilli lideri Heydər Əliyevin vəfatından 19 il ötür. Dünən Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Fəxri xiyabana gələrək xalqımızın Ümummilli Lideri Heydər Əliyevin məzarını ziyarət ediblər. Prezident İlham Əliyev Ulu Öndərin məzarı önünə əklil qoyub. Azərbaycanın Dövlət Himni səsləndirilib.**

Dövlətimizin başçısı İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Ulu Öndərin ömür-gün yoldaşı, görkəmli oftalmoloq-alim, akademik Zərifə xanım Əliyevanın da məzarı üzərinə gül dəstələri qoyublar. Daha sonra tanınmış dövlət xadimi Əziz Əliyevin və professor Tamerlan Əliyevin də xatirələri yad edilib, məzarları üstünə gül dəstələri düzülüb.

Azərbaycanın ən yeni tarixinin bütöv bir dövrü Ulu Öndər Heydər Əliyevin adı ilə bağlıdır. Müstəqilliyimizin dönməz xarakter alması, milli şüurun dirçəlişi, iqtisadiyyatın inkişafı bu dövrün əsas mahiyyətini təşkil edir. Ümummilli Liderin Azərbaycana bəxş etdiklərini tarix boyunca ondan əvvəl heç kim bacarmayıb. Məhz bu dahi şəxsiyyət ölkəmizdə qüdrətli ordu yaratdı, iqtisadiyyatı dirçəltdi, Azərbaycanın müasir tarixində misilsiz işlərə imza atdı. Heydər Əliyev dönəmi Azərbaycan tarixinin, mədəniyyətinin, elminin, təhsilinin qızıl dövrünə çevrildi. Bu gün Azərbaycan Ümummilli Liderin müəyyənləşdirdiyi yolla inamla irəliləyir. Xalqımız Ulu Öndərin layiqli davamçısı, Prezident, Silahlı Qüvvələrimizin Müzəffər Ali Baş Komandanı İlham Əliyevə inanır və onu dəstəkləyir. Bu inam və dəstəyin, həmrəyliyin ən bariz nümunəsi 44 günlük Vətən müharibəsində qazanılan Zəfər, bu gün isə Qarabağda və Şərqi Zəngəzurda aparılan möhtəşəm bərpa və quruculuq işləridir. Bu və digər nailiyyətlərin əsasında Heydər Əliyevin uzaqgörən siyasəti, praqmatik strategiyası, milli dövlətçilik konsepsiyası dayanır.

Xalqımız da öz növbəsində Ulu Öndərin xilaskarlıq və quruculuq missiyasını unutmur və heç vaxt unutmayacaq. Ötən əsrin 90-cı illərində çox ağır, böhranlı vəziyyətə düçar olmuş Azərbaycan xalqı öz xilasına, bugünkü tərəqqisinə görə özünü Heydər Əliyevə borclu sayır. Hər il dekabrın 12-də və mayın 10-da Fəxri xiyabanda yaşanan böyük izdiham Ulu Öndərin xatirəsinə əbədi ehtiramdan xəbər verir. Azərbaycan xalqı Heydər Əliyev ideologiyasına da, ideallarına da sadiqdir. Bunun davam etdirilməsi sosial çağırışdır. Məhz bu çağırışa cavab olaraq Prezident İlham Əliyevin 2022-ci il 29 sentyabr tarixli Sərəncamı ilə 2023-cü il ölkəmizdə "Heydər Əliyev İli" elan edilib və bununla bağlı Tədbirlər Planı təsdiqlənib.





Heydər Əliyev bu gün cismən aramızda olmasa da, onun parlaq ideyaları Azərbaycanın yollarını işıqlandırmaqdadır. Ulu Öndərin yolu əzmlə davam etdirilir və ölkəmizi inamla irəli aparır. Bu gün ölkəmizin milli maraqlarını qətiyyətlə müdafiə edən Prezident İlham Əliyev uzaqgörən və titanik fəaliyyəti ilə Azərbaycanı dünya miqyasında, o cümlədən Türk dünyasında və bölgədə qüdrətli dövlətə, söz və nüfuz sahibinə, etibarlı tərəfdaşa çevirib. Əminliklə söyləmək olar ki, Azərbaycan var olduqca Ulu Öndər Heydər Əliyevin ideyaları yaşayacaq və daha da inkişaf etdiriləcəkdir.



# Azərbaycan və Rusiya prezidentləri arasında telefon danışığı olub

Rusiya Federasiyasının Prezidenti Vladimir Putin dekabrın 12-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə zəng edib. Telefon söhbəti zamanı Rusiya, Azərbaycan və Ermənistan liderlərinin 2020-ci il 10 noyabr, 2021-ci il 11 yanvar və 26 noyabr, həmçinin bu il 31 oktyabr tarixli razılaşmalarının reallaşdırılmasının bəzi praktiki aspektləri, o cümlədən Cənubi Qafqazda iqtisadi və logistik əlaqələrin bərpası planları müzakirə edilib. Dövlət başçıları gələcək təmaslar barədə də fikir mübadiləsi aparıblar.

# Ulu öndər Heydər Əliyev - müasir Azərbaycanın qurucusu

## Yeni Azərbaycan Partiyasının nümayəndələri Fəxri xiyabanda ulu öndər Heydər Əliyevin məzarını ziyarət ediblər







**Dekabrın 12-də Yeni Azərbaycan Partiyasının (YAP) nümayəndələri müasir müstəqil Azərbaycan dövlətinin memarı və qurucusu, xalqımızın ümummilli lideri Heydər Əliyevin vəfatının 19-cu ildönümü ilə əlaqədar Fəxri xiyabanda Ulu Öndərin xatirəsini yad edib, məzarı önünə əklil və gül dəstələri qoyublar.**

Görkəmli oftalmoloq-alim, akademik Zərifə xanım Əliyevanın da xatirəsi anılıb, məzarı üzərinə tər güllər düzülüb.

Azərbaycanın müstəqil dövlət kimi inkişafı və tarixi uğurlar qazanması ümummilli lider Heydər Əliyevin titanik fəaliyyəti, məqsədyönlü siyasəti və əbədiyaşar ideyaları ilə bağlıdır. Xalqımız qarşısında misilsiz xidmətlər göstərən Ulu Öndər ölkəmizin müstəqillik yolunda inkişafına nail olaraq yeni Azərbaycan reallığını yaratmışdır. Bu gün qüdrətli və qalib Azərbaycan Prezident, Yeni Azərbaycan Partiyasının Sədri İlham Əliyevin rəhbərliyi ilə Heydər Əliyevin zəngin siyasi irsi əsasında tərəqqi və Zəfər yolunda inamla irəliləyir, yeni-yeni nailiyyətlərə imza atır.

# ”Ermənistanın revanşist davranışının təşviqində üçüncü tərəflərin rolu ciddi narahatlıq doğurur”



“Ermənistan hələ də öz qanunsuz silahlı birləşmələrini Azərbaycan ərazilərindən tam çıxarmayıb. Eyni zamanda, Ermənistan kommunikasiya əlaqələrinin bərpasını süni şəkildə gecikdirir, o cümlədən Azərbaycanla Naxçıvan Muxtar Respublikası arasında maneəsiz əlaqənin təmin olunmasından imtina edir. Bunun əvəzinə, sentyabrın ortalarında delimitasiya olunmamış dövlət sərhədi boyunca təxribatdan sonra Ermənistan normallaşma gündəliyini pozmaq üçün Azərbaycana qarşı qarayaxma kampaniyasına başladı.”

Bu sözləri Azərbaycanın xarici işlər naziri Ceyhun Bayramov Avropa İttifaqı Şərq Tərəfdaşlığı xarici işlər nazirlərinin görüşündə səsləndirib. Nazir deyib ki, Ermənistanın revanşist davranışının təşviqində müəyyən üçüncü tərəflərin rolu da ciddi narahatlıq doğurur. Çünki bu, Ermənistanı hərbi təxribatları və döyüş ritorikasını gücləndirməyə sövq edir.

”Yaşadığımız mürəkkəb dövr Şərq Tərəfdaşlığının öz fəaliyyətini tərəfdaş dövlətlərin ehtiyac və maraqlarına uyğunlaşdırmasını zəruri edir. Ümid edirik ki, Aİ-nin Cənubi Qafqaza yanaşması regionda yaranan ehtiyac və prioritetlər nəzərə alınmaqla yeni situasiyaya uyğunlaşdırılacaq, - deyə Ceyhun Bayramov bildirib.

# İsrail Təhlükəsizlik Akademiyası: “Heydər Əliyev bütün dünya siyasətinin nəhəng dahilərindəndir”

Dost və qardaş Azərbaycan xalqının böyük oğlu Azərbaycan xalqının böyük öndəri Heydər Əliyev nəinki Qafqazda bütün dünyada fenomen şəxsiyyət dahi lider şəxsiyyətinə yüksək sayqı göstərilən rəhbər olub. O hər zaman özünün yüksək dünya görüşü parlaq siyasəti ilə dünya liderləri arasında seçilmiş və dünya siyasətində özünəməxsus yer tutmuşdur.

1990-cı illərin əvvəlində Azərbaycan daxilində baş verən ağır siyasi böhranlar bu ölkəni sürətlə fəlakətə aparmaqda idi. Həmin vaxt Azərbaycan qardaş qırğınlarının astanasında bölünüb parçalanmaq təhlükəsinin bir addımlığında idi. Belə demək mümkünsə Azərbaycanda bir çox zəmində separatçılıq meylləri baş qaldırmış daxildə bir çox qüvvələr Azərbaycanı bölüb parçalamaq niyyətində idilər. Belə olan bir zamanda Azərbaycan xalqının təkidləri ilə Naxçıvandan Bakıya gələn Heydər Əliyev Azərbaycan xalqının köməyinə yetişdi və Azərbaycan xalqının düşmənləri ilə siyasət meydanında mübarizə apararaq Azərbaycanı bölünməkdən və parçalanmaqdan xilas etdi.

Beləcə, 1993-cü ilin İyun 15-də Parlamentə sədr seçilən 1993-cü ilin oktyabrın 3-də isə ölkəyə Prezident seçilən dahi şəxsiyyət Heydər Əliyev Azərbaycanı dağılmaqdan və işğal altına düşməkdən xilas etdi və qorudu. Mərhum prezident dahi şəxsiyyət Heydər Əliyevin Azərbaycana rəhbərlik etməsilə Azərbaycanın çiçəklənmə dövrü başlanmış oldu. Onun rəhbərlik etdiyi dövr Azərbaycanın xilası və intibah dövrüdür. Hakimiyyətə gəlişi ilə müasir müstəqil güclü Azərbaycan dövlətini quran Heydər Əliyev Azərbaycanı bütün dünyaya tanıtdı. O Azərbaycana azadlıq və inkişaf gətirdi. Onun rəhbərliyi ilə Azərbaycan demokratik və hüquqi dəyərlər üzərində quruldu. Bütün ali dəyərlər əsas meyar olaraq ölçüldü. Heydər Əliyevin ərsəyə gətirdiyi müasir və müstəqil Azərbaycan dövləti nəinki Qafqazda hətta bütün dünyada nümunə bir ölkə olaraq quruldu. Onun uzaqgörən və parlaq siyasəti Azərbaycan daxilində yaşayan bütün xalqları qardaşlaşdırdı. Onun dövründən başlayaraq Azərbaycandakı bütün xalqlar bir-birinə daha da doğmalaşdı və bu günümüzə qədər Azərbaycandakı bütün xalqlar və müxtəlif inanclı insanlar bir-birinə qardaş kimi yanaşır. Burada heçbir zaman ayrıseçkilik olmayıb. Heydər Əliyev təkcə Azərbaycan xalqına yox burada yaşayan digər millətlərə də əmin-amanlıq bəxş edib.

Hakimiyyətə gəlişindən qısa müddət sonra 1994-cü ilin sentyabrın 20-də ”Əsrin müqaviləsi”ni imzalayan Heydər Əliyev Azərbaycanı bütün dünyaya tanıtdı və bu ölkənin siyasi çəkisini bütün dünyaya qəbul etdirdi. Onun zəngin dühası və parlaq siyasəti nəticəsində dünya dövlətləri Azərbaycanla hesablaşmağa başlamışdır. Onun rəhbərliyi altında Azərbaycan təşəkkül taparaq inkişaf və tərəqqiyə doğru addımladı. Bu gün Azərbaycanın qüdrətli dövlətə çevrilməsi regionun ən güclü ölkəsi olması məhz dahi şəxsiyyət Heydər Əliyevin zəngin dühasının məhsuludur və onun siyasi ideyalarının Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilməsinin nəticəsindədir.

Bütün Yəhudi xalqı hər zaman Heydər Əliyevi özünün ən yaxın dostu hesab edir. Azərbaycanda yaşayan və Azərbaycandan xaricə və İsrailə köçən bütün Yəhudilər Heydər Əliyevi hər zaman sonsuz sayqı ilə anırlar. Dahi şəxsiyyət Heydər Əliyevi ölümünün 19-cu ilində hörmət və ehtiramla anırıq və Allahdan rəhmət diləyir məkanı cənnət olsun deyirik.

***İsrail Təhlükəsizlik Akademiyasının (ISRAEL SECURITY ACADEMY) Azərbaycan Respublikasındakı Nümayəndəliyi***

# Sergey Markov: ”Heydər Əliyev Azərbaycanı bütün dünyaya tanıdıb”



Heydər Əliyevin anım günündə bir daha demək istəyirəm: Azərbaycan xalqının bəxti gətirib. Ən böhranlı məqamda belə bir lider - XX əsrin ən parlaq siyasi liderlərindən biri tapıldı. O, ölkəni çox mürəkkəb vəziyyətdən çıxarmağa, onu elə relslər üzərinə qoymağa nail olub ki, ölkə bu yolla gedərək möhtəşəm uğurlar qazanıb. İndi Azərbaycan Qarabağı özünə qaytarıb, yaxın vaxtlarda bu regionu bərpa edəcək, yüz minlərlə insan doğma yurdlarına qayıdacaq. Əminəm ki, Qarabağ çiçəklənən diyar olacaq. Əlbəttə, bu məsələdə Ali Baş Komandan İlham Əliyevin və onun atası dahi Heydər Əliyevin çox böyük xidmətləri var.

AZƏRTAC xəbər verir ki, bu fikirləri Siyasi Tədqiqatlar İnstitutunun direktoru Sergey Markov söyləyib. S.Markov deyib: ”Heydər Əliyev vətəndaş müharibəsini dayandıra bildi, Azərbaycanın dirçəlməsinə xidmət edən ”Əsrin müqaviləsi”ni bağladı, ölkədə vətəndaş həmrəyliyini bərpa etdi, ənənəvi dəyərlərə, İslam ənənələrinə və dünyəvi dövlət təsisatlarına hörməti heyrətamiz şəkildə əlaqələndirməyi və Azərbaycanı bütün dünyaya tanıtmağı bacardı. Heydər Əliyevə xas olan siyasi dahiyanəlik heyranlıq doğurur”.

# ƏBƏDİYAŞAR LİDER!

## Xalqımız Ulu Öndər Heydər Əliyevin xatirəsini dərin ehtiramla anır

***Xalqımızın Ümummilli Lideri Heydər Əliyevin əbədiyyətə qovuşmasından 19 il ötür. Ölkə ictimaiyyətinin nümayəndələri hər il olduğu kimi, bu dəfə də Fəxri xiyabana axışaraq Ulu Öndərin məzarını ziyarət edir, xatirəsini dərin ehtiramla anırlar. Müasir müstəqil Azərbaycan dövlətinin banisi, dünyaşöhrətli siyasi xadim Heydər Əliyevin xatirəsini yad etməyə gələnlər sırasında cəmiyyətin müxtəlif təbəqələrindən olan insanlar - Vətən müharibəsi qaziləri, hərbçilər, müxtəlif təşkilatların nümayəndələri, elm və mədəniyyət xadimləri, müharibə və əmək veteranları və başqaları var. Çoxsaylı ziyarətçilər Ümummilli Liderin məzarı üzərinə gül dəstələri düzür, işıqlı xatirəsi önündə baş əyirlər.***















Ulu Öndər çətin dövrlərdə həmişə xalqının yanında olub. 20 Yanvar faciəsi zamanı bu qanlı qırğına qarşı etiraz səsini ilk dəfə Heydər Əliyev ucaltdı. Azərbaycanın Moskvadakı daimi nümayəndəliyinə gələrək Bakıda sovet ordusunun törətdiyi qırğın barədə həqiqətləri bütün dünyaya çatdırdı, qətliamın məsuliyyətinin bilavasitə SSRİ rəhbərliyinin üzərinə düşdüyünü bəyan etdi. Xalqın təkidli tələbi ilə 1993-cü ilin iyununda ölkəmizdə siyasi hakimiyyətə qayıdan Ümummilli Lider Heydər Əliyev xilaskarlıq missiyasını uğurla yerinə yetirdi. 1993-2003-cü illərdə Azərbaycanda milli dövlət quruculuğu prosesi əzmlə həyata keçirildi, nizami ordu formalaşdırıldı, ölkəmiz dinamik inkişaf yoluna qədəm qoydu.

Heydər Əliyevin uzaqgörən siyasətini qətiyyətlə davam etdirən Prezident İlham Əliyev Ulu Öndərin başladığı bir çox işləri uğurla başa çatdırdı. Nəhəng transmilli layihələrin təşəbbüskarı olan Azərbaycanı dünyada söz və nüfuz sahibinə çevirdi. Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə 44 günlük Vətən müharibəsində ordumuz düşməni darmadağın edərək torpaqlarımızın 30 illik işğalına son qoydu.

Otuz il işğal altında qalan torpaqlarımız Prezident, Silahlı Qüvvələrimizin Müzəffər Ali Baş Komandanı İlham Əliyevin rəhbərliyi ilə azad olundu. Hazırda Azərbaycanın dövlət bayrağı Vətən torpaqlarında, Qarabağın tacı Şuşada dalğalanır.

Ulu Öndərin xalqa və Vətənə sonsuz sevgisi, Azərbaycan dövlətçiliyinə hədsiz sədaqəti indiki və gələcək nəsillərə böyük örnəkdir. Ümummilli Liderin zəngin irsi ölkəmizin davamlı inkişafını təmin edən əvəzsiz məktəbdir. Təsadüfi deyil ki, dövrünün ən nüfuzlu siyasətçiləri ilə bir sırada duran Heydər Əliyevin Azərbaycanın müasir simasının, xalqımızın zəngin dəyərlərinin tanıdılmasında, ölkəmizin beynəlxalq münasibətlər sistemində layiqli mövqe qazanmasında müstəsna rol oynayıb. Müstəqil Azərbaycanın bütün uğurları, qazanılan hər bir zəfərimiz Ulu Öndər Heydər Əliyevin ideyalarının təntənəsidir. Heydər Əliyev yolu Azərbaycanı daim irəli aparır. Xalqımız öz xilaskarını, bütün həyatını doğma Vətəninin tərəqqisinə həsr etmiş Ümummilli Liderin xidmətlərini unutmur və unutmayacaq. Fəxri xiyabanda müşahidə olunan mənzərə bunu bir daha nümayiş etdirir. Ulu Öndər Heydər Əliyevin xatirəsi Azərbaycanın bölgələrində, xarici ölkələrdə yaşayan soydaşlarımız tərəfindən də yad edilir.

# Müasir gənclər siyasətinin banisi

Yüksək intellektual bacarıqlara malik olan və ölkənin ictimai-siyasi həyatında aktiv şəkildə fəaliyyət göstərən gənclər dövlət idarəçiliyi, iqtisadiyyat, mədəniyyət, idman, ordu və digər sahələrdə uğurla çalışaraq, ölkəmizi şərəflə və yüksək səviyyədə təmsil edirlər. Qürurla demək olar ki, bu gün Azərbaycan gəncliyi üzərinə götürdüyü şərəfli vəzifələrin öhdəsindən layiqincə gəlməyi bacarır. İnformasiya-kommunikasiya texnologiyalarının sürətlə inkişaf etdiyi bir dövrdə bütün dünyada, həm də informasiya müharibəsinin getdiyini nəzərə alsaq, vətəndaşlarımız, xüsusilə, gənclərimiz daha çox maarifləndirilir, onlara daim ayıq-sayıq olmaları, elmli, savadlı gənclik olaraq yetişmələri aşılanır. Əsası Ulu Öndər Heydər Əliyev tərəfindən qoyulan dövlət-gənclər siyasəti, sovet məkanında yaşadığımız illərə təsadüf edir. Belə ki, Ümummilli Lider Heydər Əliyev ötən əsrin 70-80-ci illərində Azərbaycan gənclərinin cəmiyyətin inkişafında rolunu artırmaq, ölkənin gələcək inkişafında iştirakını və məsuliyyətini yüksəltmək istiqamətində məqsədyönlü gənclər siyasətini həyata keçirib. Heydər Əliyevin 1969-1982-ci illərdə respublikaya rəhbərlik etdiyi dövürlərdə yüzlərlə yeni tədris ocaqları, gənclik mərkəzləri, hərbi məktəblər açılmış, minlərlə azərbaycanlı gənc keçmiş SSRİ-nin nüfuzlu ali məktəblərində təhsil almış, müasir ixtisaslara yiyələnmişdir. Heydər Əliyevin şəxsi təşəbbüsü və qayğısı sayəsində o zamanlar Sovetlər İttifaqının 50-dən artıq iri şəhərinin 170 nüfuzlu ali məktəbində bütövlükdə 80-dək sahəni əhatə edən 150 ixtisas üzrə 15 mindən çox azərbaycanlı gəncin ali təhsil almasına, yüksək ixtisaslı mütəxəssis kimi hazırlanmasına imkan və şərait yaradılmışdır. Azərbaycan gənclərinin birinci forumunda Heydər Əliyev demişdir: "Bütün bunların hamısı o vaxtlar Azərbaycanın gələcəyi üçün yeni-yeni mütəxəssislər hazırlamaq məqsədi daşımışdır. Bu işə biz hələ 70-ci ildən başlamışdıq. Mən bu gün çox məmnuniyyət hissi ilə qeyd edirəm ki, bu, şəxsən mənim təşəbbüsümlə olmuşdur. Mən hələ o vaxtdan ölkəmizin gələcəyini düşünürdüm".










Ulu Öndər Heydər Əliyev Azərbaycanda müstəqillik dövründə gənclər siyasətinə önəm verərək, onların təşkilatlanmasına xüsusi diqqət ayırıb. Azərbaycanın müstəqilliyi və ərazi bütövlüyünün qorunması, ölkədə hüquqi-demokratik dövlət quruculuğu prosesində gənclərin rolunun müstəsnalığı nəzərə alınaraq, vahid gənclər siyasəti hazırlanıb, həyata keçirildi. Ümummilli Lider Heydər Əliyev gənclərin dövlətin və cəmiyyətin sosial-iqtisadi, ictimai-siyasi və mədəni həyatında iştirakının təmin edilməsini vacib məsələlərdən biri kimi elan etdi. Gənclər, İdman və Turizm Nazirliyinin yaradılması, müstəqil Azərbaycan gənclərinin ilk Ümumrespublika Forumunun keçirilməsi, dövlət proqramlarının qəbulu, "Dövlət-gənclər siyasəti haqqında" Fərman və geniş Fəaliyyət Proqramının təsdiq edilməsi Ulu Öndər Heydər Əliyevin gənclərə böyük qayğısı idi. 1997-ci ildə fevralın 2-nin Azərbaycan Gəncləri Günü elan edilməsi Ulu Öndər Heydər Əliyevin gənclərlə böyük qayğısının sübutu idi. Bütün bunlar gənclərin respublikanın ictimai-siyasi həyatında daha fəal iştirakına şərait yaratmaqla yanaşı, dövlət orqanlarının diqqətinin gəncliyin problemlərinin həllinə yönəldilməsi baxımından da olduqca əhəmiyyətli idi.

## "İSTƏNİLƏN SAHƏDƏ PEŞƏKAR OLMAQ HƏR BİR GƏNCİN, HƏR BİR İNSANIN HƏYATDA YAXŞI YER TUTMASINA GƏTİRİB ÇIXARACAQDIR"

Bu gün Prezident İlham Əliyev Ulu Öndər Heydər Əliyevin gənclər siyasətini uğurla davam etdirir. Gənclərin mənəvi inkişafı, vətənpərvərlik tərbiyəsi, xarici ölkələrdə təhsili, sosial müdafiəyə ehtiyacı olanların problemlərinin həlli istiqamətində görülən işlər, gənclər təşkilatlarının formalaşması və inkişafı üçün yaradılan şərait və imkan böyük diqqətin nəticəsidir. Dövlət başçısının gənclərin xaricdə təhsil almalarına dəstək verən "2007-2015-ci illərdə Azərbaycan gənclərinin xarici ölkələrdə təhsil üzrə Dövlət Proqramı" bütün təbəqədən olan gənclərin xaricdə təhsilinə geniş imkanlar açmış oldu. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Azərbaycan gəncliyinin savadına, bacarığına və gələcəyinə böyük inam bəsləyir: "... Hər bir insanın gücü, əlbəttə ki, onun biliyindən asılıdır. Ona görə mən əminəm, gənclərimiz bunu yaxşı başa düşürlər ki, yaxşı bilik almaq, yaxşı savad almaq və istənilən sahədə peşəkar olmaq hər bir gəncin, hər bir insanın həyatda yaxşı yer tutmasına gətirib çıxaracaqdır".

Eyni zamanda, Azərbaycan Prezidenti İlham Əliyev tərəfindən 2007-ci ilin ölkədə "Gənclər ili" elan olunması da Azərbaycan gənclərinin ölkənin ictimai-siyasi, iqtisadi və mədəni həyatında fəal iştirakı, sosial problemlərinin həlli və hüquqlarının müdafiəsinin təmin edilməsi, gənclər siyasətinin bütün istiqamətləri üzrə müvafiq dövlət proqramının səmərəli həyata keçirilməsi istiqamətində əhəmiyyətli oldu. Həyata keçirilən tədbirlər, islahatlar, dövlət proqramları əsasında deyə bilərik ki, Ulu Öndər Heydər Əliyevin gənclərə qayğısı indi yeni mərhələyə qədəm qoyub. Ölkəmizdə gənc nəslin problemlərinin həlli, onların cəmiyyət həyatında layiqli təbəqə kimi iştirakının təmin olunması, milli adət-ənənələrə, saf dəyərlərə bağlılığı üçün dövlət səviyyəsində bütün zəruri tədbirlər həyata keçirilir.

## "BİZİM HAMIMIZIN ƏSAS VƏZİFƏSİ DÖVLƏT MÜSTƏQİLLİYİNİ MÖHKƏMLƏNDİRMƏKDİR, ONU QORUMAQDIR"

Müasir dövrdə elmin və texnologiyanın sürətli inkişafı Azərbaycan dövlətinin gənclərlə bağlı zamanın tələblərinə uyğun siyasət yürütməsini zəruri edib. Bu zərurəti nəzərə alan dövlətimizin başçısı gənclərin intellektual, fiziki və mənəvi inkişafını, ölkənin sosial-iqtisadi, ictimai-siyasi və mədəni həyatında fəal iştirakını təmin etmək məqsədilə 2015-ci il yanvarın 26-da "2015-2025-ci illərdə Azərbaycan gənclərinin İnkişaf Strategiyası"nın təsdiq edilməsi haqqında Sərəncam imzalayıb. Prezident İlham Əliyev gənclərimizin dini ekstremizm, separatizm, beynəlxalq terrorizm kimi təhlükəli, zərərli təsirin altına düşməsinin qarşısını alan yeni iş metodlarının tətbiqi zərurəti ilə əlaqədar "Azərbaycan gəncliyi 2017-2021-ci illərdə" Dövlət Proqramının təsdiq olunmasına dair imzaladığı Sərəncamı da qeyyd olunmalıdır. Gənclərlə bağlı bütün məsələlərin geniş əhatə olunduğu bu mühüm Sənəd Azərbaycanda gənclər siyasətinin daha səmərəli həyata keçirilməsinə geniş imkanlar açmış oldu. Cəmiyyətin bütün sahələrində gənclərin fəal iştirakına şərait yaradılıb, onların yaradıcı və innovativ potensialının üzə çıxarılmasını dəstəkləmək, gənc nəslin sağlamlığını qorumaq, gənclərin təhsil və məşğulluq məsələlərinə diqqəti artıb.

Bütün bunlarla yanaşı, ölkəmizdə könüllülük hərəkatı inkişaf edib. Son illər ölkəmizdə həyata keçirilən beynəlxalq və qitə miqyaslı tədbirlərdə, o cümlədən, idman yarışlarında gənclərin könüllülər qrupunda təmsil olunması vətənpərvər, milli köklərə bağlı, müasir dünyagörüşlü, şəxsi keyfiyyətləri yüksək olan vətəndaş kimi formalaşmasını özündə təcəssüm etdirir. Könüllülük fəaliyyəti gənclərdə faydalı əmək və həmrəylik kimi dəyərlər aşılamış olur. Bildiyimiz kimi, 2020-ci il Azərbaycan Respublikasında dövlət başçısının Sərəncamı ilə "Könüllülər İli" elan edildi. Bu Sərəncam gənclərin fərdi inkişafına təkan vermək, onlarda sosial məsuliyyət hissini artırmaq, gəncliyin potensialından xalqın rifahı və ölkəmizin dayanıqlı inkişafı üçün səmərəli istifadə etmək məqsədi daşıyırdı. Könüllülük insanları vahid niyyət ətrafında birləşdirən, vətəndaş, cəmiyyət və dövlətin birgə fəaliyyətinin ən uğurlu formatıdır. Könüllülük həm də vətənpərvərlik məktəbi, öz xalqına, dövlətinə, milli-mənəvi dəyərlərə bağlılıq və xidmət örnəyidir. Öz iradəsi və sərbəst seçimi əsasında, əvəzi ödənilməyən ictimai faydalı fəaliyyəti həyata keçirən könüllülük fəaliyyətinin əsasında, cəmiyyət naminə təmənnasız işlərin görülməsi dayanır.

Dövlətin gənclərə göstərdiyi diqqət və qayğı, həm də gənclərin üzərinə böyük məsuliyyət qoyur. Cənab İlham Əliyevin vurğuladığı kimi, "Hər bir gənc bilməlidir ki, bizim hamımızın əsas vəzifəsi dövlət müstəqilliyini möhkəmləndirməkdir, onu qorumaqdır"

Bu gün Azərbaycan gənci üzərinə düşən ən böyük məsuliyyəti dərk edərək işğal altında olan torpaqlarımızı qanı, canı bahasına azad etdi. Hər yerdən olduğu kimi gənclərimizin səsi müharibə bölgələrindən də eşidildi. Minlərlə gəncimiz vətən torpaqlarının azadlığı uğrurunda şəhid oldu. Son damla qanlarına qədər qəhrəmancasına vuruşdular. Azərbaycan sağlam düşüncəli, qəhrəman, igid, cəsur Azərbaycan gəncliyi ilə qürur duyur.

***Nəzakət ƏLƏDDİNQIZI***

# Laçın-Şuşa yolunda Azərbaycan ekoloq və fəallarının etiraz aksiyası davam edir




Şaxtalı havaya baxmayaraq qeyri-hökumət təşkilatlarını təmsil edən bir qrup Azərbaycan ekoloqunun Laçın-Şuşa yolunda etiraz aksiyası davam edir. Onlar Rusiya sülhməramlı kontingentinin müvəqqəti yerləşdirildiyi Azərbaycan ərazilərində təbii ehtiyatların qanunsuz istismarına etirazlarını bildirirlər. Ekoloji fəallar təbii sərvətlərin talan edilməsinə son qoyulması tələblərini bildirən şüarlar söyləyirlər. Etirazçılar Qızılbulaq qızıl yatağına və Dəmirli mis-molibden yatağına buraxılmayınca aksiyanı davam etdirmək fikrində olduqlarını bildirirlər. Etirazçılar üçün qurulmuş çadırlara isti yemək çatdırılır.

Xatırladaq ki, Azərbaycan Xarici İşlər Nazirliyi Rusiya tərəfinə etiraz notası göndərib. Notada Azərbaycan nümayəndələrinin göstərilən yataqlara maneəsiz baş çəkmələrini təmin etməyə çağırış əks olunub. Belə səfərə maneə törətməyin və ya hər hansı şərtlər irəli sürməyin yolverilməz olması vurğulanıb. 2020-ci il 10 noyabr tarixli Üçtərəfli Bəyanata uyğun olaraq Azərbaycan ərazisində yerləşdirilmiş Rusiya sülhməramlı kontingenti tərəfindən Azərbaycan Respublikasının suverenliyinə və ərazi bütövlüyünə ciddi riayət edilməsinin zəruriliyi diqqətə çatdırılıb.








# Mənzillərimiz qışa nə qədər hazırdır?

"Qış fəslinin gəlməsi Bakı və ətraf qəsəbələrdə yaşayan sakinlərin mənzillərinin qışa nə qədər hazırlıqlı olması barədə sualı ortaya çıxarır". Bu sözləri SİA-ya açıqlamasında əmlak üzrə ekspert Anar Nəsirov deyib. Onun sözlərinə görə, bu gün havaların soyuması sakinlər üçün mənzillərin isidilməsi ilə bağlı əlavə problemlər yaradır. Hansı binalarda ki, "Azəristilik" tərəfindən mərkəzləşmiş istilik sistemi varsa onlarda bu problem yaşanmır, ancaq bu istilik sistemlərindən istifadə etməyən sakinlər üçün əlavə xərclər yaradır. İndi elə evlər var ki, daxili isitməni kombi ilə həyata keçirir və bu, öz növbəsində əlavə xərclər deməkdir. Nəzərə alsaq ki, indi qaz da limitlə verilir, onda ayrılmış limit 1 ay sonra bitir və vətəndaş əlavə ödənişlə qaz alır, bu da öz növbəsində ailə büdcəsinə təsirsiz ötüşmür. Digər təbəqə sakinlər isə soyuqdan ən çox ziyan görən vətəndaşlar hesab edilir ki, onların nə istilik, nə də kombi sistemi var. Onlar daha çox kustar üsullarla hazırlanmış soba və digər vasitələrdən istifadə edirlər. Bu da onların həyatları üçün həddindən artıq təhlükəlidir. Bu kimi kustar üsullarla hazılanmış sobalar təhlükə saçır. Hər an hər şey ola bilər onun üçün onu istifadə



edənlər bilməlidirlər ki, bu kimi vasitələrdən istifadə etmək çox təhlükəkidir. Ani bir qaz kəsintisi və yaxud küləkli hava onların həyatına son qoya bilər. Onun üçün gecə yatarkən bu kimi standartlardan kənar qızdırıcıları və sobaları yanılı vəziyyətdə qoyub yatmaq özünə qəsd etməkdir. Çünki, gecə yuxuda olarkən qazın kəsilməsi və yaxud sönməsi onların boğulmasına, evin yanmasına və partlamasına səbəb olar ki, onda da o evdən sağ çıxmaq mümkün deyil. Bundan başqa kustar üsullara hazırlanmış vasitələr karbon monoksit qazının evə sızması nəticəsində daha ağır ola bilər. Bu qazın iyinin qoxsunun olmaması təhlükənin nə qədər qorxulu olmağını xəbər verir. Mən bir daha vətəndaşları xəbərdarlıq edirəm, qış fəslinə keçid dövründə bütün pəncərə və nəfəsliklər bağlı olduğu üçün evin havası çıxmağa yer olmur ona görə soba və qızdırıcı vasitələrin istifadəsi çox təhlükəli hal sayılır. Bu vaxtlarda qazdan və karbon monoksit qazlarından boğulmaların sayı artır, bu hallar yaşanmamağı üçün gecə vaxtı sobanı yana-yana qoyub yatmaq çox təhlükəlidir. Bundan başqa hər gün 1-2 dəfə evin havasın dəyişmək lazımdır. Başqa bir təhlükə vanna otağında hesab edilir. Soyuq keçən havada vanna otağında pəncərə və nəfəsliklərin bağlı olması daha böyük bir təhlükədir və hər il nə qədər insanın həyatının itirilməsinə səbəb olur".

Ekspert fikrlərinə davam edərək onu da qeyd etdi ki, qış fəslinə keçid olduğu üçün bütün vətəndaşlarımızı xəbərdar edirəm ki, qazla işləyən su qızdırıcı vasitələri vanna otaqlarına qoymayın, bundan başqa kustar üsullarla hazırlanmış sobaları, o cümlədən sertifikatı olmayan sobalarla çox ehtiyatlı olun. "Əks halda bu sizin ailənizdə sevdiklərinizin vaxtsız ölümünə səbəb ola bilər. Bundan başqa tüstü bacalarının yoxlanılmasını və nəfəsliklərin baxımını vaxtlı vaxtında həyata keçirin, bir şeyi heç vaxt unutmayın bir insan ömründən baha dünyada heç nə yoxdur. Odur ki, öz ailənizin və sevdiklərinizin həyatını və təhlükəsizliyini daimi diqqət mərkəzində saxlayın."

***Ziya Hikmət oğlu***



## Medianın İnkişafı Agentliyinin nümayəndələri Ümummilli Lider Heydər Əliyevin məzarını ziyarət ediblər

Dekabrın 12-də Medianın İnkişafı Agentliyinin rəhbərliyi və kollektivi Ümummilli Lider Heydər Əliyevin anım günü ilə əlaqədar Fəxri xiyabana gələrək, Ulu Öndərin əziz xatirəsini dərin ehtiramla yad edib, abidəsi önünə gül dəstələri düzüblər. Görkəmli oftalmoloq-alim, akademik Zərifə xanım Əliyevanın da xatirəsi ehtiramla anılıb, məzarı üzərinə tər güllər düzülüb.

## Volkov-Vardanyan "ÇVK"sı

*Artıq "bıçaq sümüyə dirənib" və heç nə əvvəlki kimi olmayacaq!*

### "RSK-nın məsul olduğu ərazilərdə Azərbaycanın təbii sərvətlərini talan etmək üçün Vardanyanın iştirakı ilə RSK-nın komandanı Volkov arasında biznes-sindikat formalaşdırıldı"

SİA xəbər verir ki, bu kimi maraqlı qənaətə Qafqaz Tarixi Mərkəzinin direktoru, siyasi analitik Rizvan Hüseynov gəlib. O, öz analitik şərhində qeyd edib ki, cəmi bir neçə ay keçməmiş (Ruben Vardanyanın Qarabağa göndərilməsi nəzərdə tutulur-R.R.) RSK-nın məsul olduğu ərazilərdə Azərbaycanın təbii sərvətlərini talan etmək üçün Vardanyanın iştirakı ilə RSK-nın komandanı Volkov arasında biznes-sindikat formalaşdırıldı. SİTAT: "Nəticədə RSK Vardanyanın maraqlarına xidmət göstərməyə başladı və yavaş-yavaş 020-ci ilin 10 noyabr tarixindən sonra missiyasının nəyə təhkim olunduğunu da unutdu. Bunun səbəbidir ki, RSK "Volkov-Vardanyan "ÇVK"sına çevrildi". Politoloqun sözlərinə görə, buradakı hədəf Qarabağ ermənilərinin, eləcə də "uluların və müqəddəslərin qədim sarsaxı (qondarma "artsax" adına tənə ilə yanaşılıb -R.R.) adlı mantralarının "müdafiəsi" adı altında öz biznes maraqlarını təmin etmək məqsədini daşıyır.


EKSPERT RƏYİ+ AKTUAL

### "Volkov və onun zabitləri əldəqayırma "sarsax" tutovkasını içməyə son qoymalı və ayıq başla düşünməlidirlər ki, nəyə ilişiblər"

"Bütün bunların nəticəsi olaraq "Volkov-Vardanyan ÇVK"sı onların özləri üçün kədərli nəticələnəcək", deyə qeyd edən Rizvan Hüseynov hərbi qarşıdurmaya səbəb ola biləcək istənilən təxribatın, istənilən situasiyanın inkişafının Azərbaycan tərəfindən hesablandığını bildirib. SİTAT: "Ona görə də Volkov və onun zabitləri əldəqayırma "sarsax" tutovkasını (tut arağı-R.R.) içməyə son qoymalı və ayıq başla düşünməlidirlər ki, nəyə ilişiblər. Volkovla Vardanyanın səmimi münasibətləri ağır "poxmellə" nəticələnəcək".

***Rövşən***

# YÜKSƏK İNKİŞAFA VƏ RİFAHA ƏSASLANAN SİYASƏT!

## Prezident İlham Əliyevin Oğuz və Şəkiyə səfəri regionların inkişafına olan diqqətin əyani təzahürüdür





Dünya birliyinə sürətlə inteqrasiya olunaraq demokratik inkişaf yolunda atdığı ardıcıl addımlarla regionda böyük nüfuz sahibinə çevrilən müstəqil Azərbaycanın qısa zamanda əldə etdiyi böyük nailiyyətlər, ilk növbədə hər bir vətəndaşın mənafeyinə xidmət edən təkmil sosial-iqtisadi inkişaf strategiyasına əsaslanır. Əsası ulu öndər Heydər Əliyev tərəfindən qoyulmuş mütərəqqi islahatları bütün sahələrdə inamla davam etdirən Azərbaycan Prezidenti İlham Əliyev son 19 ildə regionların sosial-iqtisadi inkişafını xüsusi diqqət mərkəzində saxlamış, bu istiqamətdə kompleks tədbirlər həyata keçirmişdir. "Bizim iş üslubumuz belədir: bölgələrdə problemi müəyyən etmək, onun həlli üçün lazım olan yolları müəyyən etmək, axtarmaq və tədbirlər planı hazırlamaq. Bunu etmək üçün artıq bizim maliyyə imkanlarımız da var" - deyən dövlət başçısının həyata keçirdiyi uğurlu strategiya nəticəsində Azərbaycan qısa müddətdə dünyanın sürətlə inkişaf edən, bütün sahələrdə yeniləşən dövlətlərindən birinə çevrilmişdir.





### BÖLGƏLƏRƏ HƏR SƏFƏR YENİ UĞURLARIN TƏMƏLİ VƏ MÜJDƏSİDİR

Bəli, Azərbaycanın yüksəlişinin əsas göstəricilərindən biri olan regionların inkişafı hər zaman dövlət siyasətinin prioritet istiqamətlərindən biri olub. Regionların inkişafı üçün zəruri infrastrukturun yaradılması, investorların regionlara cəlb olunması, yeni iş yerlərinin açılması, əhalinin həyat tərzinin yaxşılaşdırılması ölkəmizdə uğurla həyata keçirilən davamlı sosial-iqtisadi inkişaf strategiyasının mühüm tərkib hissəsi olduğunu təsdiq edən ən mühüm amillərdir. Məhz bu amilləri əsas tutan Azərbaycan Prezidenti İlham Əliyevin ölkənin rayon və bölgələrinə etdiyi müntəzəm səfərlər regionların sosial-iqtisadi inkişafı dövlət proqramlarının icrasının effektivliyinin təmin olunması baxımından müstəsna əhəmiyyət kəsb edir. Və bu səfərlər zamanı verilən dövlət tapşırıqlarının icrası yerində yoxlanılır, baş tutan açılışlar və təməlqoyma mərasimləri isə görülmüş işlərin həcminin göstəricisidir. Elə bu günlərdə - dekabrın 2-də Prezident İlham Əliyev, birinci xanım Mehriban Əliyeva və qızları Leyla Əliyeva Şəki və Oğuz rayonlarına səfər çərçivəsində bir çox obyektlərin açılışında və təməlqoyma mərasimlərində iştirak edib. Səfər çərçivəsində Prezident İlham Əliyev, birinci xanım Mehriban Əliyeva və qızları Leyla Əliyeva Qaraməryəm-İsmayıllı-Şəki avtomobil yolunun Oğuz-Şəki hissəsinin yenidənqurmadan sonra açılışında iştirak edib, Şəkinin Orta Zəyzid kəndində "Green Factory" Məhdud Məsuliyyətli Cəmiyyətinin quru meyvə istehsalı müəssisəsində yaradılan şəraitlə, Şəki Şəhər İcra Hakimiyyətinin yeni inzibati binasında yaradılan şəraitlə tanış olublar.



### HEYDƏR ƏLİYEV FONDUNUN NÖVBƏTİ UĞURLU İŞİ - ŞƏKİ XAN MƏSCİDİ KOMPLEKSİ BƏRPA OLUNUB

Respublikamızda gedən inkişaf proseslərinə Heydər Əliyev Fondu da layiqli töhfələr verməkdədir. O cümlədən regionların yüksəlişində də fond yaxından iştirak edir, dövlət siyasətinə dəstək olaraq mühüm layihələr həyata keçirir.Şəki rayonunda görülən işlər də göstərdi ki, Mehriban xanım Əliyevanın rəhbərliyi ilə Heydər Əliyev Fondunun regionlarda həyata keçirdiyi layihələr davamlı xarakter alıb. Bu layihələr həm tariximizin qorunmasına, həm də sosial rifahın yüksəlməsinə xidmət edir. Fond tərəfindən həyata keçirilən layihələrdən biri də Şəki Xan məscidi kompleksində aparılan bərpa işləridir. Bərpa işləri 2021-ci ilin may ayından etibarən həyata keçirilib. Heydər Əliyev Fondu bərpa işləri ilə yanaşı, qazıntılar zamanı aşkar olunan və Şəki xanı nəslinə aid olduğu ehtimal edilən skelet nümunələri üzrə tədqiqatların aparılmasına da dəstək göstərib. Həmçinin Heydər Əliyev Fondunun təşəbbüsü ilə Oğuz şəhərində 100 yerlik körpələr evi-uşaq bağçası da inşa edilib. Dekabrın 2-də Prezident İlham Əliyevin rayona səfəri zamanı istifadəyə verilən bağça ən müasir standartlara uyğun tikilib. Bu bağçanın inşası bir daha göstərir ki, Heydər Əliyev Fondu sosial infrastrukturun inkişafına layiqli və nümunəvi töhfələrini davam etdirir. Həmçinin, Heydər Əliyev Fondunun təşəbbüsü ilə Oğuzda inşa edilmiş körpələr evi-uşaq bağçasının açılışda iştirak edib. Şəkinin "Yuxarı Baş" Milli Tarix-Memarlıq Qoruğu ərazisində aparılan təmir-bərpa işləri ilə tanışlıq zamanı Prezident İlham Əliyev və Birinci xanım Mehriban Əliyeva sakinlərlə görüşüb söhbət etdilər, xatirə şəkilləri çəkdirdilər.Həmçinin, Prezident İlham Əliyev səfər çərçivəsində Oğuzda Daşağıl çayı üzərində "Oğuz-1", "Oğuz-2", "Oğuz-3" kiçik su elektrik stansiyaları silsiləsinin açılışında da iştirak edib. Dövlət başçısı "Şəki-Oğuz" Aqroparkının torpaq sahəsinin suvarma suyu ilə təmin edilməsi üzrə görülmüş işlərlə tanış olub. Dövlətimizin başçısı aqroparkın torpaq sahəsini suvarma suyu ilə təmin edən qurğuları işə salıb.Bir sözlə, bütün bunlar bir daha göstərir ki, Prezident İlham Əliyevin regionların inkişafı və quruculuq işləri ilə bağlı qarşıya qoyulan vəzifələr sürətlə icra olunur, bütün məqsədlər həyata vəsiqə alır. İstifadəyə verilən və təməli qoyulan yeni müəssisələr və infrastrukturlar isə həm regionun yüksəlişinə xidmət edəcək, həm də bütövlükdə respublikamızın inkişaf göstəricilərinə töhfə verəcək.Onu da qeyd edək ki, regionların sosial-iqtisadi inkişafına dair dövlət proqramları üzrə qarşıya qoyulmuş vəzifələr bu rayonların hər birində icra olunub.Bax, budur müasir Azərbaycan həqiqətləri. İnanırıq ki, Prezident İlham Əliyevin Şəki və Oğuza səfərləri də bu rayonların inkişafının daha da sürətlənməsinə xidmət edəcək.

**RƏFİQƏ KAMALQIZI**



# Böyük tarix: oxuyaq və öyrənək!

Ümummilli liderimiz Heydər Əliyevin Naxçıvanda yaşadığı, fəaliyyət göstərdiyi dövr iki ilədək olsa da, Azərbaycan tarixinin böyük bir hissəsini əhatə edir. Böyük şəxsiyyətin Naxçıvan Muxtar Respublikası Ali Məclisinin sessiyalarındakı çıxışlarını, Naxçıvana gələn qonaqlarla söhbətlərini, ayrı-ayrı sahələrdəki vəziyyətlə bağlı fikirlərini, müsahibələrini oxuduqca çox məqamlar açıqlanır. Bunlardan birincisi, ulu öndərə baxmayaraq ki, Naxçıvanda yaşadığı və fəaliyyət göstərdiyi vaxtlar da ölkə rəhbərliyi tərəfindən təzyiqlər var idi, lakin onun Azərbaycan rəhbərliyinə həmişə böyük hörmət hissi ilə yanaşdığının, bunun da dahi şəxsiyyətin böyük idarəçilik qabiliyyətinin, insanlığının, alicənablığının nəticəsi olduğunu dərk edirsən. İkincisi, dahi insanın qonaqlara, xarici ölkələrdən gələn nümayəndələrə Naxçıvanın Azərbaycanın qədim ərazisi olduğunu tarixi faktlarla izahının şahidi olursan. Üçüncüsü, onun ölkədəki, eləcə də muxtar respublikadakı ictimai-siyasi hadisələrin siyasi təhlilinin və təcavüzkar Ermənistanın, onun havadarlarının uzaq gələcəyə hazırlanmış planlarını nə qədər dəqiqliklə analiz etdiyini görürsən. Ümumilikdə isə ulu öndərin hər bir çıxışı, söhbəti bu günün bir tarix dərsidir ki, gələcək nəslin Naxçıvanın blokada illəri haqqında məlumat alacaqları bundan güclü ikinci bir mənbə yoxdur.

Naxçıvanda yaşamasına və fəaliyyət göstərməsinə baxmayaraq Azərbaycanın taleyüklü məsələlərini diqqətdə saxlayan, müstəqilliyimizin bərpası üçün mübarizə aparan, sözünü yüksək kürsülərdən açıq şəkildə deyən, yeri gələndə hakimiyyətdə olanları ittiham edən ulu öndərin Naxçıvan illəri ilə bağlı topladığım maraqlı materialları - çox böyük tariximizi gənc nəsillərə çatdırmaq istədim ki, oxusunlar və öyrənsinlər... Hansı ki, həmin dövrdə bu cür addımlar və çıxışlar etmək böyük cəsarət tələb edirdi. Buna görə də onlar öyrənilməlidir ki, müstəqilliyimiz, tariximiz də məhz bu cür cəsarətlə və hünərlə qoruna bilsin.

## Azərbaycan Respublikası Ali Sovetinin 29 avqust 1991-ci il tarixli sessiyasında Xalq deputatı Heydər Əliyevin çıxışından

Hörmətli millət vəkilləri!

Ölkədə, cəmiyyətdə siyasi və istisadi böhran, dövlət, hakimiyyət böhranı son dərəcədə şiddətlənmişdir. Mürtəce qüvvələrin demokratiya əleyhinə hücumu, cinayətkar qrupun həyata keçirdikləri dövlət çevrilişi dəf edilmişdir. Biz artıq sovet imperiyasının, kommunist partiyasının dağılmasının şahidiyik.

Bu dövrdə bizim respublikamızın, Azərbaycan xalqının vəziyyəti daha ağırdır. Bunun əsas səbəbi respublikada hökm sürən Azərbaycan Kommunist Partiyasının diktatura rejiminin mürtəce siyasəti və buraxdığı kobud, bağışlanmaz səhvlərdir (Zaldan etiraz səsləri). Sessiyada hər bir deputatın öz sözünü deməyə hüququ var. Belə siyasətin nəticəsində respublikanın kommunist rəhbərliyi avqust ayının 19-22-də ölkədə dövlət çevrilişi və fövqəladə vəziyyət üzrə dövlət komitəsinin fəaliyyətini faktiki olaraq bəyənmiş, beləliklə də Azərbaycan xalqını çox pis vəziyyətdə qoymuşdur. Bundan erməni millətçiləri dərhal çevikcəsinə istifadə etmiş, bizim respublikamıza qarşı hərbi əməliyyatı, siyasi təbliğatı gücləndirmişlər. İndi biz respublikamızın həyatında ən çətin bir dövrdə çıxış yolu tapmalıyıq və hamımız bu çıxış yolunun tapılmasına səy göstərməliyik. Ancaq biz müəyyən etməliyik ki, bu çıxış yoluna nə vasitə ilə nail ola bilərik. Son günlərdə, o cümlədən bu gün bu tribunadan xalqı birliyə, milli həmrəyliyə dəvət edən çağırışlar eşidilir. Təəssüf ki, bu çağırışlar artıq gecikibdir. Ancaq biz bu gün nəyin bahasına olursa olsun, milli birlik yaratmağa çalışmalıyıq. Bunun üçün isə tam aydın olmalıdır, bu milli birlik hansı platforma əsasında hasil ola bilər, hansı platforma əsasında biz buna nail ola bilərik. Bu birliyi təmin etmək üçün mənim fikrimcə bir neçə şərtlər təcili olaraq həyata keçirilməlidir. Bu təklifləri mən seçkiqabağı çıxışlarımda, Azərbaycan Respublikası Ali Sovetinin fevral və mart aylarında keçirilən sessiyalarında, bu ilin iyul ayının 19-da kommunist partiyasından çıxarkən verdiyim bəyanatda və nəhayət, bu ilin avqust ayının 24-də Azərbaycan Ali Sovetinin Rəyasət Heyətinə göndərdiyim məktubda ətraflı bildirmişəm. Təkrar etmək istəmirəm. Ancaq indi bir neçə təklifləri qeyd etmək istəyirəm.

**Birincisi:** Bakıda fövqəladə vəziyyət dərhal götürülməlidir. Bu gün Ayaz Mütəllibov dedi ki, fövqəladə vəziyyət nəyə lazımdır, götürülməlidir. Çox yaxşı. Ancaq bunu bir il yarım Bakıda saxlayan kimdir? Kimin qərarı ilə Azərbaycan Respublikası Ali Sovetinin sessiyasının 1990-cı il yanvar ayının 22-də qəbul olunmuş qərarı icra edilməyib. Aydınlaşdırmaq lazımdır ki, bu il yarımda fövqəladə vəziyyəti Bakıda saxlamaq üçün respublika nə qədər vəsait xərcləyib və respublikaya nə qədər zərər vurulub.

**İkincisi:** Azərbaycan Respublikasının rəhbərliyinin dövlət çevrilişi haqqındakı mövqeyi barədə cürbəcür söhbətlər gedir. Xarici və ittifaq informasiya orqanları bu barədə xəbərlər yayıblar. Bu məsələ aydınlaşdırılmalıdır. Kim xaricdə nə deyib, o bizim üçün maraqlı deyil. Ancaq məlumdur ki, avqust ayının 21-də Azərbaycan televiziyası ilə Ayaz Mütəllibovun xalqa müraciəti oxunubdur. Müraciət həm Azərbaycan dilində, həm də rus dilində oxunub. Müraciətdə fövqəladə vəziyyət komitəsinin fəaliyyəti bəyənilib və fövqəladə vəziyyət üzrə dövlət komitəsinin fəaliyyəti ilə Azərbaycan Respublikasının bir neçə məsələsinin həll olunmasına ümid bəslənilib. O cümlədən Dağlıq Qarabağ məsələsinin və silahlanmış erməni bandit qruplarının tərksilah olunması məsələsinin həll olunması fövqəladə vəziyyət üzrə komitənin fəaliyyəti ilə bağlanıbdır. Bunu aydın demək lazımdır. Ola bilər belə səhvlər buraxılıb. Ancaq xalq həqiqəti bilməlidir. Bu gün belə deyib, o biri gün elə demək heç vaxt xalqda inam yarada bilməz.

**Üçüncüsü:** Xalqda birlik yaratmaq üçün Azərbaycan Kommunist Partiyası dərhal hakimiyyətdən getməlidir. Bu, Sovet İttifaqı Kommunist Partiyasının tərkib hissəsidir. Sovet İttifaqı Kommunist Partiyası dağılmışdır. Azərbaycan Kommunist Partiyasını hələ də saxlamaq və onun buraxılması məsələsini qurultayda həll etmək bu məsələni uzadıb, kommunist partiyasını yenə də hakimiyyətdə saxlamaq, onun imkanlarından istifadə etmək meylini göstərir. Bununla qəti razılaşmaq olmaz. Azərbaycan Kommunist Partiyasının bütün strukturları ləğv olunmalıdır, əmlakı milliləşdirilməlidir. Azərbaycan Kommunist Partiyasının və mətbu orqanlarının işi dayandırılmalıdır və Azərbaycan Kommunist Partiyası Mərkəzi Komitəsinin hərbi xunta ilə əməkdaşlıq edib-etməməsi aydınlaşdırılmalıdır. Bunun üçün parlament komissiya yaratmalıdır. Mənim fikrim budur...

Dördüncüsü: 20 Yanvar faciəsindən il yarımdan çox vaxt keçir. Bu gün bu salonda cürbəcür söhbətlər gedir. Bir qrup deputat bir fikirdədir, məndən qabaq çıxış edən Rəhimov başqa fikirdədir. Mən Ali Sovetin sədri Elmira Qafarovaya, Azərbaycan prezidenti Ayaz Mütəllibova sual verirəm: nə üçün indiyə qədər bu hadisəyə siyasi qiymət verilməyib? Tamerlan Qarayevin verdiyi izahatla mən razılaşa bilmərəm. Çünki bu məsələnin həm siyasi tərəfi var, həm də hüquqi tərəfi var. Bu hadisəyə siyasi qiyməti dərhal vermək olardı. O ki qaldı hüquqi cəhəti, ayrı-ayrı adamların məsuliyyətə cəlb olunması, onu şübhəsiz ki, istintaq qrupu ilə aydınlaşdırmaq lazımdır. Buna siyasi qiymət vermək lazımdır. (Bu vaxt salonda səs-küy qopur. E. Qafarova siyasi qiymət verildiyini bildirir) Bəs verilibsə, kim bu hərbi təcavüzün günahkarıdır. Bu gün deyilir ki, Yazov, Kryuçkov. Bəli, belədir. Ancaq bura Bakatini, Qorbaçovu, Primakovu da əlavə etməliyik. Sonra?.. Bəs Azərbaycan rəhbərliyindən kimlər günahkardırlar? Bəli, bu şəxslər də məlumdur. Vəzirov, Qafarova, Mütəllibov və Azərbaycan Kommunist Partiyası Mərkəzi Komitəsinin başqa büro üzvləri...

## “Azərbaycanın Müstəqillik Bəyannaməsi” ilə bağlı Azərbaycan Ali Sovetinin 30 avqust 1991-ci il tarixli sessiyasında Heydər Əliyevin çıxışından

Çox mühüm məsələ həll olunur. Tarixi məsələdir. Bunu tələm-tələsik həll etmək olmaz. Bu, Azərbaycan xalqı qarşısında parlament tərəfindən öz üzərinə böyük məsuliyyət götürmək deməkdir və Tofiq Köçərlinin durub hər suala cavab verməsinə səlahiyyəti yoxdur.

**Birincisi:** Mən hesab edirəm ki, bu məsələ müzakirə olunmalıdır. Yenə də deyirəm, bunu belə tələm-tələsik keçirmək olmaz. Bu barədə iki-üç kəlmə demək istəyirəm. Çox qəribədir. Martın 7-dən 10-na qədər keçirilən Ali Sovetin sessiyasında bir çox deputatlar, o cümlədən mən də Azərbaycanın müstəqilliyini təklif edərkən bizim əleyhimizə cürbəcür hücumlar başlandı. Və A. Mütəllibovun o qədər də dərin mənalı olmayan, əsassız çıxışından sonra hamı haykûylə səs verdi ki, Azərbaycanın müstəqilliyi ola bilməz və biz referenduma getməliyik, yeni ittifaq müqaviləsini imzalamalıyıq (salonda səs-küy qalxır).

Xahiş edirəm, Elmira xanım, şərait yaradın, sözümü deyim(səs-küy). Mən xahiş edirəm.

Tələm-tələsik referendum keçirildi. Azərbaycanın ittifaq müqaviləsinə getməsi haqqında qərar qəbul olundu. Belə olan halda, indi xalqın iradəsi olmadan bu cür qərarın, ya bəyanatın qəbul olunması qanunu pozmaq deməkdir. Mən bu bəyanatın qəbul olunmasının əleyhinə deyiləm. Ancaq bu bəyanatı indi qəbul edib, xalqa müraciət etmək lazımdır. Qısa müddətdə, 3-4 gün içərisində referendum keçirmək lazımdır və referendumun nəticəsinə görə sessiya yığışıb bu qərarı qəbul etməlidir. Bağışlayın, fikrimi deyirəm.

**İkincisi:** Mən mart ayında da demişdim. İkiüzlü siyasət aparmaq olmaz. Bu qərar bu gün konyuktur xarakter daşıyır. Başqa yerlərdə qərar qəbul olunur. Demək, biz də qərar qəbul etməliyik.

Biz artıq gecikmişik. Bu bəyanatın mətninə mütləq olunmlıdır ki, 1920-ci ilin aprelində Azərbaycan işğal olunub. Mən Azərbaycan Kommunist Partiyasına 14 ilə yaxın rəhbərlik etmişəm. 28 aprel inqilabını tərənnüm etmişəm və mən tam qətiyyətlə deyirəm, 28 apreldə Azərbaycan işğal olunub, Azərbaycan Demokratik Respublikası zorakılıqla ləğv olunub. Əgər biz bunu qeyd etməsək, yenə də xalqın qarşısında ikiüzlü olarıq. Mənim fikrim budur.

## Azərbaycan Respublikası Ali Sovetinin sessiyasına

**Teleqram**
**18 oktyabr 1991-ci il**
**Bakı**

Naxçıvan Muxtar Respublikasının əhalisi Azərbaycan Respublikasının 18 oktyabr 1991-ci il tarixli sessiyasında qəbul edilmiş "Azərbaycan Respublikasının dövlət müstəqilliyi haqqında" Konstutusiya aktı münasibətilə bütün Azərbaycan xalqını təbrik edir və bunu böyük tarixi hadisə kimi qəbul edir. Naxçıvan Muxtar Respublikasının demokratik qüvvələri son ildə Azərbaycan Respublikasının milli azadlığı, müstəqilliyi uğrunda fəal mübarizə aparıb, bu yolda qurbanlar verib və 18 oktyabr 1991-ci il tarixdə qəbul olunmuş "Azərbaycan Respublikasının dövlət müstəqilliyi haqqında" Konstitusiya aktını bütün Azərbaycan demokratik qüvvələrinin böyük qələbəsi kimi qiymətləndirir. 17 mart 1991-ci il tarixdə Sovet Sosialist Respublikaları İttifaqının saxlanılması haqqında keçirilmiş referendumda Naxçıvan Muxtar Respublikasının əhalisinin iştirak etməməsi məhz muxtar respublika demokratik qüvvələrinin Azərbaycan milli azadlıq, istiqlaliyyət uğrunda apardığı mübarizə ilə əlaqədardır.

Biz bu gün xoşbəxtik ki, nəhayət, Azərbaycan Respublikası ali hakimiyyət orqanı tərəfindən milli azadlıq niyyətlərimizin həyata keçirilməsi üçün ilk addım atılıbdır. Azərbaycan xalqı tam əmin ola bilər ki, naxçıvanlılar milli azadlıq hərəkatı uğrunda mübarizəsini daha əzmlə davam etdirəcəklər.

## Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Heydər Əliyev Naxçıvan Muxtar Respublikası Ali Məclisi sessiyasının növbəti iclası

Oktyabrın 26-da Naxçıvan Muxtar Respublikası Ali Məclisi sessiyasının növbəti iclası oldu. İclasa Naxçıvan Muxtar Respublikası Ali Məclisinin sədri H. Ə.Əliyev sədrlik edidi.

...İclası açarkən H.Ə.Əliyev yoldaş qeyd etdi ki, gündəliyə verilmiş məsələlərdən başqa bir neçə məsələnin də gündəliyə salınması zəruridir. Bildiyiniz kimi sentyabr ayının 3-dən 7-dək keçirilən Muxtar Respublika Ali Məclisinin sessiyasında biz iqtisadi, ictimai-siyasi vəziyyəti müzakirə edərək xüsusən iqtisadiyyat haqqında təsbirlər barəsində Muxtar Respublika Nazirlər Kabinetinə tapşırıqlar verdik. O müddət çox gərgin olubdur. Məlum olduğu kimi, biz blokadaya alınmışıq. Dəmir yolu bağlanıb, böyük iqtisadi çətinliklər olubdur. Ali Məclis və Nazirlər Kabineti yaranmış vəziyyəti aradan qaldırmaq üçün bir sıra tədbirlər görmüş və həmin tədbirlər öz nəticəsini vermişdir.

...Uzun müddətdir ki, Naxçıvanda və ümumiyyətlə, Azərbaycanda söhbət gedir ki, muxtar respublikada iqtisadi zona yaradılsın, xarici ölkələrlə iqtisadi əlaqələr inkişaf etdirilsin. Naxçıvanın daxili sərvətlərindən, iqtisadi potensialından xarici əlaqələr vasitəsi ilə muxtar respublikanın iqtisadiyyatının inkişaf etdirilməsi üçün istifadə olunsun. Ümumiyyətlə, bir neçə belə təkliflər irəli sürülmüş, lakin onlar yerinə yetirilməmişdir. Ona görə də həm Ali Məclisin rəhbərliyi, həm də Nazirlər Kabineti belə bir fikrə gəlmişlər ki, bu məsələni daha mütəşəkkil həll etmək üçün bir neçə təşkilati tədbirlər həyata keçirilsin. Bu tədbirlər barədə sizə məlumat veriləcəkdir. Ona görə də təklif olunur ki, həmin məsələ gündəliyə daxil edilsin.

Üçüncü məsələ ondan ibarətdir ki, Naxçıvan Muxtar Respublikası ərazisində bir sıra hərbi hissələr yerləşir. Son vaxtlar ölkədə gedən proseslər, hərbi hissələrlə yerli hakimiyyət orqanları arasındakı münasibətlərin tarazlaşdırılması tələb edir ki, bu məsələyə də ətraflı baxılsın. Sizə məlumdur ki, ölkənin bir çox regionlarında bu sahədə işlər aparılır. Bizim respublikada da müəyyən çətinliklər yaranmışdır. Hərbçilərlə əhali arasında bəzən münaqişələr, xoşagəlməz hallar olur. Son vaxtlar aşkar edimişdir ki, hərbçilər muxtar respublikanın ərazisindən Ermənistana yüklər, hərbi sursatlar aparırlar. Ona görə də təklif edirəm ki, Naxçıvan Muxtar Respublikası ərazisində olan hərbi hissələrin bugünkü statusunun dəqiqləşdirilməsi məsələsi gündəliyə salınsın.

## 26 oktyabr 1991-ci il
## Türkiyə ilə Azərbaycan arasında açılan körpü üzərində Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Heydər Əliyevin çıxışından

-Əziz həmvətənlər, əziz bacılır, əziz qardaşlar, əziz müsəlmanlar, əziz türklər, əziz türkiyəli qonaqlar! Bura toplaşanların hamısana mən böyük ehtiram hissilə müracət edirəm. Bu gün tarixi bir gündür. Bu gün Türkiyə Cümhuriyyətinin yaranmasının 68-ci ildönümüdür. Bu gün eyni zamanda türk dünyasının, İslam aleminin, Türkiyənin və Azərbaycanın tarixinə yeni bir səhifə yazılır. Uzun illər Arazın o tayında, bu tayında yaşayan can qardaşları, qan qardaşları bir millət həsrəti çəkdikləri, görüşlər həsrətində yaşadıqları duyğuların hamısının qovuşması üçün bu gün ilk addım atılır, ilk şərait yaranır. Nəhayət, burada, qədim Naxçıvan diyarında, türk yerində, müsəlman diyarında, Naxçıvanın bu gözəl guşəsində, Sədərək rayonu ərazisində Türkiyə ilə Azərbaycan arasında körpü açılır. Mən bu gün burada qocaman Arazın sahilinə, Naxçıvan diyarına və Türkiyənin bu gözəl mənzərəli guşəsinə, Ağrı dağının ətəyinə toplaşanların hamısını Türkiyə Cümhuriyyətinin yaranmasının 68-ci ildönümü münasibəti ilə və bütün türk xalqının bu bayramı münasibətilə təbrik edirəm.



...Naxçıvanda demokratik qüvvələr artıq hakimiyyətə gəliblər. Ona görə də uzun sürən həsrətləri təmin etmək üçün biz birinci növbədə bu körpünün tikilməsini özümüz üçün böyük vəzifə hesab etmişik. Qısa müddətdə bu körpünün birinci mərhələsi, sizin gördüyünüz hissə artıq inşa olunub. Bu gün bu hadisə münasibətilə buraya toplaşanları, bütün Naxçıvan əhalisini 70 il həsrətində olduğu bu körpünün yaranması münasibətilə Naxçıvan Muxtar Respublikasının Ali Məclisi, hökuməti adından təbrik edirəm. Mən bu gün bir daha sizə, bütün naxçıvanlılara, bütün Azərbaycan əhalisinə çatdırmaq istəyirəm ki, bu hadisə Azərbaycanın müstəqilliyi uğrunda Naxçıvan Muxtar Respublikasında gedən demokratik proseslərin gözəl nəticələrindən biridir. Biz bundan sonra da Azərbaycanın tam müstəqil, azad dövlət kimi fəaliyyət göstərməsi üçün əzmlə çalışacağıq. Biz bu günü, şən və xoşbəxt günü 1918-ci ildə yaranmış Azərbaycan Demokratik Respublikası və o respublikadan doğulmuş Azərbaycanın milli bayrağının bərqərar olması ilə əlaqələndiririk. Sizi əmin etmək istəyirəm ki, bundan sonra da 1918-ci ildən bizim ataların, babaların, Məmməd Əmin Rəsulzadənin qoyduğu yolla daha da sürətlə gedəcəyik. Ümidvarıq ki, Azərbaycan xalqı bu yolda daha xoşbəxt günlərə qovuşacaqdır.

Bizim Naxçıvan Muxtar Respublikasında görəcəyimiz işlər çoxdur. Burada yaranmış körpü ilk addımdır. Biz şübhə etmirik ki, bu körpünün davamı, daha nəhəng körpü, gözünüzün qarşısında olan körpü ən yaxın müddətdə tikilib qurtaracaq və buradan iki körpü keçəcəkdir. Sonra dəmiryol körpüsü keçəcək və beləliklə bizim Azərbaycan ilə Türkiyə arasında Arazın o tayında və bu tayında qalmış bir millətin daha da yaxınlaşması yolunda böyük işlər görüləcək, gələcəkdə türk dünyası, İslam aləmi bütün dünyaya özünün nəyə qadir olduğunu bir daha sübut edəcəkdir.

Mən sizi bir daha təbrik edirəm. Arzu edirəm ki, bu körpülərin hamısı tikilib qurtarandan sonra, Türkiyə ilə əlaqə sıx bağlanandan sonra bu yollar daha da geniş açılsın. Bu tikanlı simlər götürülsün. İnsan azadlığı tamamilə bərqərar olsun. Bizim xalqımız istədiyi vaxt istədiyi yerə, o cümlədən Türkiyədən Azərbaycana, Azərbaycandan da Türkiyəyə azad gedib gələ bilsin. Çox sağ olun, minnətdaram sizə

## 29 oktyabr 1991-ci il
## Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Rəyasət Heyətinin iclasda muxtar respublika Ali Məclisinin sədri Heydər Əliyevin çıxışından

Son aylar Naxçıvan Muxtar Respublikasının həyatı, eləcə də Azərbaycanın həyatı çox çətin və böhranlı olmuşdur. Son günlər isə vəziyyət daha da kəskinləşmişdir. İqtisadi böhranla yanaşı olaraq mayın 1-də Ermənistan tərəfdən muxtar respublika ərazisinə hərbi təcavüz edilmiş, bu təcavüz bir neçə gün davam etmiş, sonra aparılan danışıqlar nəticəsində onu aradan qaldırmaq mümkün olmuşdur. Lakin may ayının 18-də yenə də Ermənistan tərəfdən muxtar respublika hərbi təcavüzə məruz qalmışdır ki, bu da Ermənistanla Naxçıvan arasında ən ağır, ən qanlı konfliktdir. Bunun nəticəsində itkilər verilmiş, çoxlu yaralananlar olmuş, Sədərək kəndi dağıdılmışdır. Şərur rayonunun bir neçə kəndindən əhali köçürülmüşdür. Bir sözlə, Naxçıvan Muxtar Respublikasının həyatı xeyli gərginləşdirilmişdir. Bildiyiniz kimi, dəmiryolu işləmir. İndi bizim Azərbaycanla əlaqəmiz yalnız hava yolu vasitəsilədir. Buna görə də muxtar respublikaya yanacaq, ərzaq və başqa ləvazimatların gətirilməsi tamamilə məhdudlaşmışdır. Bütün bunlar isə son illər onsuz da dağılmış iqtisadiyyatın daha pis vəziyyətə düşməsinə səbəb olmuşdur...

Naxçıvanda yaranmış vəziyyəti bütün dünya ictimaiyyətinə çatdırırıq. Bunun özü bizim üçün çox böyük nailiyyətdir. Çünki son dörd il ərzində Dağlıq Qarabağda gedən müharibə ilə əlaqədar həmişə Azərbaycanı günahlandırmışlar. Xarici orqanlar, dünya ictimaiyyəti, o cümlədən Rusiya ictimaiyyəti həmişə ermənilərin xeyrinə birtərəfli məlumatlar almışlar. Lakin bu dəfə bizim bütün diplomatik və siyasi fəaliyyətimiz dünya ictimaiyyətinə yaranmış vəziyyət barədə düzgün məlumat verilməsinə imkan yaratdı. Artıq Moskva televiziyası məlumat vermişdir ki, Ermənistan Azərbaycana hücum etmişdir...

Belə bir vaxtda bizi Naxçıvanın həm müdafiəsi, həm iqtisadiyyatın inkişafı, həm də əhalinin maddi vəziyyəti çox dərindən düşündürür. Lakin bildiyiniz kimi, daxili imkanlarımız çox məhduddur. Türkiyə bu günlər bizə yenə də hərtərəfli yardım göstərir. Bildiyiniz kimi, biz Sədərək vuruşmalarında yaralanmış 16 nəfəri müalicə olunmaq üçün Türkiyəyə göndərmişik. Əgər ehtiyac olsa, yenə də göndərə bilərik. Bundan əlavə Türkiyədən həkimlər də gəlib və hazırda bizim xəstəxanalarda yaralıları müalicə edirlər.

Dərman da göndərilib. Mən Baş nazir Süleyman Dəmirəllə telefonda danışarkən o bildirdi ki, Qızıl Ay Cəmiyyəti vasitəsilə Naxçıvana təcili yardım göndəriləcək. Lakin yardımlar nə qədər olsa da, bizim tələbatımızı ödəmir...

Bütün bunları nəzərə alaraq biz belə bir fikrə gəlmişik ki, Naxçıvanın vahid inkişaf və müdafiə fondunun yaradılması təklifini sizin müzakirənizə verək. Bu fond mərkəzləşmiş şəkildə olsun. Onun bankda hesabı ayrılsın, bütün Naxçıvanın inkişafına, müdafiəsinə yardım etmək istəyənlər öz vəsaitlərini bu fondun hesabına keçirsinlər. Fondun təşkil olunması və ondan istifadə edilməsi üçün komissiya yaradılsın. Əgər bu sahədə başqa təkliflər də varsa, biz onları dinləməyə hazırıq...

## 28 may 1992-ci il
## Naxçıvan Muxtar Respublikası Ali Məclisi Rəyasət Heyətinin qərarı

Azərbaycan ilə Türkiyə arasında sərhəd keçidi yaratmaq məqsədilə Araz çayı üzərində Naxçıvan Muxtar Respublikasının ərazisində Sədərək-Dilucu bölgəsində Türkiyə Cümhuriyyəti avtomobil nəqliyyatı üçün körpü tikilmişdir.

1992-ci ilin may ayının 28-də bu körpünün rəsmi açılışına Türkiyə Cümhuriyyətinin Baş naziri Süleyman Dəmirəl başqa olmaqla, Türkiyədən Naxçıvana böyük dövlət nümayəndə heyəti gəlmişdir. Həmin gün Türkiyə Cümhuriyyətinin, Azərbaycan Respublikasının və Naxçıvan Muxtar Rebspublikasının rəhbərliyinin, Araz çayının o tayında-bu tayında toplaşmış Naxçıvanın və Türkiyənin çoxminli əhalisinin iştirakı ilə Türkiyə ilə Azərbaycan arasındakı körpünün rəsmi açılışı olmuşdur. Beləliklə iki qardaş xalqın üzün illər həsrətində olduqları arzuları yerinə yetmiş, Sədərək-Dilucu "Həsrət körpüsü", "Ümid körpüsü" yaranmışdır.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Rəyasət Heyəti Sədərək -Dilucu körpüsünün yaranmasını böyük əhəmiyyətə malik olan bir hadisə kimi qiymətləndirir və qeyd edir ki, bu körpü Türkiyə Cümhuriyyəti ilə Azərbaycan Respublikası arasında iqtisadi, mədəni, insani əlaqələrin genişlənməsinə və inkişaf etməsinə, Araz çayının o tayında və bu tayında olan qardaş xalqların bir-birinə yaxınlaşmasına xidmət edəcəkdir.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Rəyasət Heyəti qeyd edir ki, Sədərək-Dilucu körpüsü Türkiyə Cümhuriyyəti ilə Naxçıvan Muxtar Respublikası arasında 24 mart 1992-ci ildə Ankarada imzalanmış əməkdaşlıq protokolunun həyata keçirilməsi, Türkiyə Cümhuriyyətinin Naxçıvan Muxtar Respublikasına protokolda nəzərdə tutulmuş maddi-texniki və mədəni yardımın təmin olunması üçün geniş imkan açır. Yuxarıda qeyd olunanları əsas tutaraq Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Rəyasət Heyəti qərara alır:

1. İstifadəyə verilmiş Sədərək-Dilucu körpüsü Türkiyə Cümhuriyyəti ilə Azərbaycan Respublikasının Naxçıvan Muxtar Respublikası arasında rəsmi sərhəd-keçid qapısı elan edilsin.

2. Sədərək-Dilucu rəsmi sərhəd keçid qapısının işinin təşkil edilməsi Naxçıvan Muxtar Respublikasının Nazirlər Kabinetinə tapşırılsın.

## Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Heydər Əliyev
## 9 iyul 1992-ci il

Yuxarıda qeyd olunanlar ulu öndərimizin Naxçıvanda həyata keçirdiyi böyük işlərin az bir hissəsidir. Çox təbii ki, bu böyük fəaliyyəti bir qəzet yazısına sığdırmaq da mümkün deyil. Seçdiyimiz bu hissələr Azərbaycanın müstəqilliyi, bu yolda aparılan mübarizə, ölkəmizin çətin vəziyyətdə olan bölgəsini-Naxçıvanın ağır blokadası şəraitində həyata keçirilən işlərlə bağlı olduğu üçün onları xatırlamağı özümüzə borc bildik. Borc bildik ki, gənc nəsil də oxusun və öyrənsin. Bununla əlaqədar Prezident cənab İlham Əliyevin də dəyərli fikirlərini xatırlamaq yerinə düşər: "Naxçıvan strateji yerdə yerləşir, ölkəmizin təhlükəsizliyi, inkişafı üçün xüsusi rol oynayır. Naxçıvanın uğurlu inkişafı ulu öndər Heydər Əliyevin adı ilə bağlıdır. Ulu öndər sovet dövründə də daim Naxçıvana böyük diqqət göstərmişdir və o vaxt respublikanın inkişafı üçün çox böyük işlər görülmüşdür. 1990-cı illərin əvvəllərində - Naxçıvan üçün ən ağır illərdə ulu öndər naxçıvanlılarla birlikdə burada çox ağır şəraitdə Naxçıvanı böyük bəlalardan qurtara bilmişdir. Biz hamımız o illəri yaxşı xatırlayırıq, bilirik ki, bizim mənfur düşmənlərimizin niyyəti, eyni zamanda, Naxçıvanı da işğal etməkdən ibarət idi. Naxçıvana qarşı onlar silahlı hücumlar təşkil edirdilər. Ancaq naxçıvanlılar ulu öndərin ətrafında sıx birləşərək düşmənə layiqli cavab verib onları yerinə oturtmuşlar".

**_Mətanət Məmmədova_**

# Ermənipərəst korrupsioner lobbi - doğruya bağıran oğru

**Korrupsiya cinayətdir və bu hal bütün ölkələrə şamil edilir. Yazılı ədəbiyyata görə, korrupsiyaya qarşı mübarizəni ilk dəfə eramızdan əvvəl 24-cü əsrin ikinci yarısında Şumerdə Laqaş şəhər-dövlətinin kralı Uruinimgina başladıb. Qədim Misir, Hindistan, Romada bu cinayətə qarşı mübarizə aparılıb, ümumilikdə bütün dövrlərdə tədbirlərə əl atılıb.**

Korrupsiya lobbiçilik üçün günümüzdə də davam edir. Qafqazın, Azərbaycanın, Ermənistanın xəritədə yerini bilməyən ABŞ və Avropa İttifaqından olan konqresmenlər, siyasətçilər lobbiçilik fəaliyyəti ilə məşğul olurlar. Onların müxtəlif "həvəsləndirmələr" qarşılığında bu kimi əməllərə cəlb edildiyi ehtimalı az deyil. Onlar müxtəlif "hədiyyələr" qarşılığında məsələlərə müdaxilə etməklə qarşıdurmaları daha da gərginləşdirir, yeni problemlər yaradırlar.









Son zamanlar Avropa Parlamentində baş verən korrupsiya qalmaqalı ilə bağlı müzakirələr davam edir. Dünyanın idarə edilməsində, haqqın müdafiəsində başlıca rollardan birini oynayan bir qurumda belə cinayətin törədilməsi Avropa İttifaqının ali qanunverici qurumunun tövsiyə, məsləhət və iradlarının üzərinə kölgə salır. Bu cinayət hadisəsi hətta ittifaqın nüfuzuna da ciddi zərbə vurur.

Bu günlərdə Belçikada Avropa Parlamenti sədrinin müavini, yunanıstanlı siyasətçi Eva Kayli korrupsiya işi istintaqı çərçivəsində saxlanılıb. Onun adı futbol üzrə dünya çempionatının Qətərdə keçirilməsi ilə bağlı korrupsiyada əsas fiqurlardan biri olaraq hallanır. Hazırda Belçika polisi bu işi araşdırır. Eva Kaylinin korrupsiya əməli sübut olunsa, bu, Avropa Parlamentində son zamanların ən böyük cinayət hadisəsi olacaq. Bu fakt Avropa İttifaqının müxtəlif qurumlarının korrupsiya ilə bağlı irəli sürdükləri ittihamların obyektivliyi üzərinə də kölgə salır. İttifaqın adının bu kimi qalmaqalda hallanması isə təşkilat daxilində "qonorar" qaşılığında lobbiçiliklə məşğul olan cinayətkar şəbəkənin varlığını isbatlayır. Bu, dünyanın az qala hər yerində hüquq pozuntusu, korrupsiya halı axtaran Avropanın öz daxilində böyük maxinasiya sisteminin formalaşdığını deməyə əsas verir.

Bir hadisəni xatırlamaq yerinə düşər. İllər öncə İtaliyanın keçmiş Baş naziri Silvio Berluskoninin adı Hindistanla bağlı korrupsiyada hallanıb. O, məhkəmədə bildirib ki, Avropa qanunlarında üçüncü dünya ölkələrindən rüşvət almamaqla bağlı bir qanun yoxdur. Bununla da Berluskoni Hindistanla imzalanan müqavilə üçün rüşvət aldığına bəraət qazandırıb. Başqa sözlə, belə çıxır ki, avropalılar bu cinayət əməlini yalnız ölkə və ittifaq daxilinə şamil edirlər.

Fransanın keçmiş Prezidenti Nikola Sarkozinin Liviyanın keçmiş lideri Müəmmar Qəddafi ilə aralarındakı çoxmilyonluq cinayət sövdələşməsini də buna nümunə olaraq göstərmək mümkündür. Bir neçə il əvvəl Fransa neft sənayesinin 37 rəhbərinə qarşı korrupsiya ittihamı irəli sürülmüşdü. Müttəhimlər Fransanın "Elf Aquitaine" keçmiş dövlət neft şirkətinin direktorlar şurasının üzvləri idi. "Adidas" şirkətinin keçmiş sahibi, tanınmış siyasətçi, iş adamı Bernar Tapi də korrupsiya qalmaqalı çərçivəsində həbs edilmişdi. Bu cinayətdə Beynəlxalq Valyuta Fondunun direktoru Krstin Laqard və Fransanın məşhur "France Telecom" şirkətinin başçısı Stefan Rişarın da adı hallanırdı. İddiaya əsasən, Laqard Fransanın maliyyə naziri işləyən zaman Bernar Tapi 403 milyon avro məbləğində rüşvət almaqla ona ziyan vurub. Fransanın o vaxtkı xarici işlər naziri Brüno le Ru 2017-ci ildə korrupsiya qalmaqalı fonunda istefa verməyə məcbur olub. O, qızını parlamentdə pullu işə düzəltməkdə şübhəli bilinib. Fransada prezidentliyə iddialı Fransua Fiyon da oxşar cinayətdə ittiham olunub. Onun həyat yoldaşı Penelop az işləməsinə baxmayaraq, 1986-2013-cü illərdə dövlət büdcəsindən qanunsuz olaraq əməkhaqqı şəklində yüz minlərlə avro pul almaqda ittiham edilib. Fransanın keçmiş Prezidenti Fransua Ollandın müşaviri Fauzi Lamdaui fırıldaqçılıqda, korporativ vəsaitlərin səmərəsiz istifadəsi, qanunsuz gəlirlərin leqallaşdırılması və maliyyə sənədlərinin saxtalaşdırılmasında ittiham edilib. Fransa Prezidentinin o vaxtkı başqa müşaviri Kader Arif tenderlərin keçirilməsində sui-istifadə hallarına yol verməkdə şübhəli bilindiyi üçün istefa vermişdi.

ABŞ-da da özlərini ədalətin, məzlumun haqqının müdafiəçisi sayanların da adları müxtəlif korrupsiya hadisələrində hallanır. Manhetten Federal Prokurorluğu Nyu-Cersi ştatından olan ermənipərəst senator Robert Menendes barəsində federal cinayətlə bağlı təhqiqat aparır. Xatırladaq ki, amerikalı senator 2015-ci ilin aprelində Floridada çalışan göz həkimi Salomon Melqendən rüşvət almaqda ittiham olunub. Prokurorlar Menendesi seçki kampaniyası çərçivəsində 1 milyon dollara yaxın ianə və bahalı hədiyyələr almaq, həmçinin Melqenin şəxsi təyyarəsində səyahət etməklə bağlı ittiham irəli sürüb. Qeyd edək ki, Robert Menendes Nadina Arslanyan ad-soyadlı etnik erməni qadınla evlidir. Amerika Erməni Milli Komitəsi Menendesin erməni lobbisinə xidmətini, həmçinin Türkiyəyə və Azərbaycana qarşı "layiqli" işini yüksək qiymətləndirib. ABŞ-ın federal prokurorları senator Robert Menendesin həyat yoldaşı Nadine Arslanyanın müəyyən şəxslərdən rüşvət kimi hədiyyə və xidmətlər qəbul etməsini də araşdırır. Nyu-Yorkun Cənub Bölgəsi üzrə prokuror "Arslanyan işi" ilə əlaqəli şəxsləri məhkəməyə çağırıb.

Uzun illərdir ABŞ Konqresində erməni lobbisinin qatı müdafiəçisi Frank Pellon, Adam Şiff, Robert Dold, Bred Şerman kimi konqresmenlər, yaxud Barbara Bokser və Robert Menendes kimi senatorlar, eləcə də bəziləri külli miqdarda erməni vəsaitləri hesabına Azərbaycana qarşı hər cür qərəzli sifarişi yerinə yetirirlər. Senator Menendesin 2005-ci ildən başlayaraq müxtəlif vaxtlarda erməni lobbi təşkilatlarından 250 min dollar əldə etməsini də vurğulamaq yerinə düşər.

ABŞ Konqresindəki erməni lobbisinin uzun müddətdir korrupsiya ilə məşğul olduğu hüquqi cəhətdən qiymətini aldıqca başqa mətləblər də üzə çıxır. Bir müddət əvvəl Konqresin Aşağı, Nümayəndələr Palatasının sədri Nensi Pelosi bir qrup erməniseverlə İrəvana səfəri zamanı Azərbaycana qarşı ədalətsiz çıxışlar etmişdi. Onun da bu kimi cinayət əməllərinə bulaşdığı istisna edilmir. Erməni lobbisi çirkli pullarla konqresmenləri, Fransa Senatının üzvlərini və siyasilərini ələ alaraq Cənubi Qafqazda əməkdaşlığa, təhlükəsizliyin təmin olunmasına qarşı çıxır, regionda qarşıdurmanın yaranmasına sövq edirlər.

Qərb ölkələri, o cümlədən Fransa dünyada özlərini demokratiyanın beşiyi sayır. Hadisələr isə sübut edir ki, həmin dövlətlərdəki siyasətçilər, prezidentlər, deputatlar və başqa nüfuzlu şəxslər ermənilər də daxil olmaqla müxtəlif lobbilərin maraqlarının ifadəçisinə çevrilirlər. Yuxarıda Berluskoninin üçüncü dünya ölkələri ilə bağlı fikirlərini yada salmışdıq. Menendes, Bokser, Pellon, Şiff, Dold, Şerman, Makron, Fransa Senatının 256 üzvü və daha kimlər törətdikləri cinayət əməllərinə görə cəzalanmayacaqlarına arxayındırlar. Ona görə də ermənilərdən mənşəyi məlum olmayan milyonlarla dolları, avronu alıb Azərbaycan və Türkiyəyə qarşı əsassız çıxışlar edirlər. Bu azmış kimi, beləlari dünyaya haqq-ədalətlə bağlı tövsiyələr verir, korrupsiya ilə bağlı başqalarını ittiham edirlər. Onlar üçüncü dünya ölkələrinin haqqını danaraq quldurluqla məşğul olurlar. Həmin şəxslərin tövsiyə və çıxışları isə oğrunun doğruya bağırmasına çox oxşayır...

***Sədrəddin İsmayılov***

ŞƏRH+ANALİTİK

# İran rəsmisi etirazçıları hədələdi-cəzalar və edamlar davam edəcək

## Həyat yoldaşı edama məhkum edilmiş azərbaycanlı həkim Fərzanə Qarahəsənli molla rejimi tərəfindən ağır işgəncələrə məruz qalıb

**İranda Tehran rejiminin öz azadlıqları və Milli Hökumətin qurulması ilə bağlı küçələrə çıxan cənublu soydaşlarımıza qarşı amansız davranışları davam edir. Bununla yanaşı, artıq ölüm hökmləri də icra edilməkdədir. Bu dəfə İran daxili işlər nazirinin müavini Məcid Mirəhmədi etirazçılara qarşı edam hökmləri ilə bağlı beynəlxalq təzyiqlərə əhəmiyyət verməyəcəklərini bildirib.**



Mollakratiya rejiminin rəsmisi dekabrın 10-da fars mediasına verdiyi açıqlamada beynəlxalq reaksiyaların İran məhkəmə sistemi məsullarının qəti cəza tədbirləmək barədə iradələrinə təsir göstərə bilməyəcəyini xüsusilə vurğulayb və eyni zamanda, bildirib ki, onun təmsil etdiyi hökumətin etirazçılara qarşı sərt mövqe nümayiş etdirməkdə davam edəcək, hətta sərtləşdiriləcək.

Edama məhkum etdiyi azərbaycanlı rentgenoloq Həmid Qarahəsənlinin həyat yoldaşı Fərzanə Qarahəsənli ağır işgəncə edilərək, ağır həbs cəzasına məhkum edilib

Bu arada onu da xatırladaq ki, Cənubi Azərbaycan soydaşlarımızın ziyalılarına həkimlərinə, alimlərinə də qarşı kəskin, ifrat vəhşiliklər törədilir. Belə ki, molla rejiminin edama məhkum etdiyi azərbaycanlı rentgenoloq Həmid Qarahəsənlinin həyat yoldaşı Fərzanə Qarahəsənli ağır işgəncə edilərək, ağır həbs cəzasına məhkum edilib.

Həmid Qarahəsənlinin qardaşı Həsən Qarahəsənli bildirib ki, Fərzanə Qarahəsənli həbs edildikdən sonra iki gün davamlı döyülüb və həyat yoldaşının rejimin Bəsic qüvvəsinin öldürülməsində iştirak etməsi barədə yalan etiraf verilməsi istənilib.






Həsən Qarahəsənli deyib: ”Ondan məcburi saxta etiraf almaq üçün Təbriz Universitetində təhsil alan oğlunu həbs edib və işgəncə verəcəkləri ilə bağlı təhdid ediblər”

O, Fərzanə Qarahəsənlinin Kəçuyi həbsxanasına göndərildikdən sonra ailəsi ilə ilk telefon danışığında işgəncə altında ondan məcburi etiraf alındığı barədə məlumat verdiyini qeyd edib. Qeyd edək ki, Həmid Qarahəsənlidən də işgəncə altında məcburi etiraf alınıb və onun vəziyyəti ağırlaşdığı üçün xəstəxanaya köçürülüb.

Azərbaycanlı cütlük etiraz aksiyasında hökumət məmurları tərəfindən güllələnərək öldürülən azərbaycanlı şairə Hədis Nəcəfinin 40 mərasimində iştirak etdikdən bir gün sonra terrorçu Bəsic üzvünün öldürülməsindəki saxta ittihamla yaxalanmışdılar

Məlumatlarda da bildirilib ki, İran təhlükəsizlik məmurları noyabrın 4-də Kərəc şəhərində 53 yaşlı azərbaycanlı rentgenoloq Həmid Qarahəsənlinin Kərəc şəhərində yerləşən evinə hücum edərək o və həyat yoldaşı 46 yaşlı laboratoriya həkimi Fərzanə Qarahəsənlini həbs ediblər.

Azərbaycanlı cütlük etiraz aksiyasında hökumət məmurları tərəfindən güllələnərək öldürülən azərbaycanlı şairə Hədis Nəcəfinin 40 mərasimində iştirak etdikdən bir gün sonra terrorçu Bəsic üzvünün öldürülməsindəki saxta ittihamla yaxalanmışdılar.

Bütün bu kimi faktlar həm də onu göstərir ki, fars şovinizminin artan vəhşilikləri səngimir və get-gedə daha da azğınlaşır. Bu baxımdan, artıq cənublu soydaşlarımızın da müqavimətləri artır. Onların gözlərini nə edam cəzaları, nə də digər ağır, dəhşətli cəzalar qorxutmur. Çünki azadlıq eşqi hər şeydən üstündür. Bu gün Xudafərin körpüsü o taylı, bu taylı baş verən vəhşiliklərə şahidlik edir.. Ancaq bu mübarizənin zəfərlə başa çatacağı gün də uzaqda deyil.

***Rövşən RƏSULOV***

# Malıbəyli məscidinin qalıqları aşkar edildi

“Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərinə Böyük Qayıdışa dair I Dövlət Proqramı”nın yerinə yetirlməsində AMEA Tarix İnstitutunun vəzifələrinin icrası üçün yaradılan işçi qrupunun fəaliyyəti nəticəsində Rusiya sülhməramlılarının nəzarəti altında olan Malıbəyli kəndindəki məscidin xarabalığı aşkar edilib.

SİA-nın əldə etdiyi məlumata görə, bu barədə Tarix İnstitutunun əməkdaşı Faiq İsmayılov məlumat verib. Qeyd edilib ki, Malıbəyli məscidi Şuşa rayonunun ərazisində yerləşir. Malıbəyli kəndi Qarqarçayın sahilində, Şuşa şəhərindən 15 kilometr cənubda, dağətəyi ərazidə yerləşir. Xankəndi şəhərindən avtomobil yolu ilə 2,5 kilometr, Şuşadan 18, Ağdamdan isə 51 kilometr məsafədədir.



”1912-ci ildə nəşr olunmuş Qafqaz təqvimi jurnalında yazılıb ki, Yelizavetpol quberniyasının Şuşa qəzasına aid olan Malıbəyli kəndinin əhalisi 1060 nəfər təşkil edir, onların hamısı tatar kimi qeyd olunan azərbaycanlılardan ibarətdir. 1921-ci ildə aparılmış siyahıyaalmanın nəticələrinə əsasən, kənddə 942 nəfər yaşayırdı və onların hamısı azərbaycanlı idi. 1986-cı ildə aparılmış siyahıyaalmanın nəticələrinə görə kənddə 1224 nəfər yaşayırdı və onların hamısı azərbaycanlılardan ibarət idi.

Azərbaycan Respublikasının Şuşa rayonunun Malıbəyli kəndi 1992-ci il fevralın 11-dən 2020-ci il noyabrın 10-dək Ermənistanın işğalı altında olub. İkinci Qarabağ müharibəsinin nəticələrinə əsasən imzalanmış 2020-ci il 10 noyabr tarixli üçtərəfli Bəyanata uyğun olaraq Malıbəyli kəndi Rusiya sülhməramlı qüvvələrinin nəzarəti altındadır.

Şuşanın Malıbəyli kəndinin mərkəzində yerləşən Malıbəyli məscidi təkminarəli olub. İlk baxışdan Ağdam Cümə məscidinə və Şuşa şəhərindəki Yuxarı Gövhərağa məscidinə bənzəsə də, memarlıq quruluşu və ölçüləri baxımından onlardan fərqlidir. Məscidin divarları yerli çay daşları ilə tağları və tavanı qırmızı kərpicdən və əhəng məhlulu ilə Şərq üslubunda tikilib. Məscidin XVII əsrdə tikilməsi ehtimal olunur. Çünki bu məscidin memarlıq quruluşu XVIII əsr Qarabağ məscidlərinin memarlıq quruluşu və xüsusiyyətlərindən kəskin şəkildə fərqlənir.

Məscidin tavanının mərkəzində bir böyük silindrik günbəz, onun ətrafında isə 8 kiçik günbəz olub. Mərkəzi günbəzin üstü məscidə işıq düşməsi üçün baca rolunu oynayıb. Tavanın tağları mərkəzdə 4 daş sütunun, arxa, qarşı və yan tərəflərdə isə divarların üzərində oturub. Tağların kənarlarında və mərkəzi günbəzin tağlarla birləşən yerlərdə qoyulan kərpic çıxıntıları uzanaraq bir-birinə birləşərək məscidin tavanına xüsusi bir gözəllik verən ornamental görüntü, klassik mənzərə yaradır.

Düzbucaqlı formada, üçnefli tağlarla inşa edilmiş məscid üç hissədən ibarətdir. Məharətlə tətbiq olunan əhəng qarışıqlı suvaq ətraf divarları heyrət doğuracaq qədər hamar edir. Yonulmamış xırda daşlarla üzlənmiş daxili divarlar da suvaqla örtülü olub.

Ümumiyyətlə, bina zahiri görkəminə və konstruksiyasına görə, Qarabağ məscid memarlığının unikal nümunəsidir. Məscidin sağ tərəfində 5, sol tərəfində isə 3 pəncərəsi var. Məscidin əsas girişi binanın ön üç tağlı qalereyasının mərkəzi hissəsində yerləşir. Giriş qapısının və digər daxili qapıların üstündəki çərçivələrdə qırmızı boya ilə ərəb qrafikasında işlənmiş divar yazılarının izləri indiyədək qalmaqdadır. Bu yazıların bir qismi quran ayələri olsa da, çox güman ki, oxunsaydı, bu məscidin memarı haqqında da məlumata rast gələrdik.

Mərkəzi girişin sağ və sol tərəflərindəki kiçik iki otaqlara qapılar açılır. Otaqları qızdırmaq üçün ənənəvi qaydada divarlara buxarı yerləşdirilib. Binanın bütün yükünü daşıyan tavan salonun mərkəzindəki sütunları üzərində cəmləşib. Xüsusi fiqurlarla bəzədilən üçlü tağlar və tavanın kərpiclə hörülən digər hissələri mərkəzdə hörülmüş günbəzlə tamamlanıb. Bu gümbəz Ağdam şəhərində inşa edilən Pənahəli xanın sarayındakı gümbəzlə eynilik təşkil edir. Sütunlar yonulmuş daşdan hazırlanıb, səkkizguşəli formaya malikdirlər”, - deyə Faiq İsmayılov bildirib.

Tarix İnstitutunun əməkdaşı qeyd edib ki, Malıbəyli kəndi 1992-ci il fevralın 11-də Ermənistan tərəfindən işğal olunduqdan sonra yandırıldı və əhalisi etnik təmizləməyə məruz qaldı. Məscidin minarəsi Ermənistan silahli qüvvələri tərəfindən uçurduldu, tavanı bir neçə yerdən partladılaraq və yandırılaraq yararsız hala salındı. Azərbaycanın dini abidəsinə qarşı törədilmiş bu vəhşilik erməni vandalizminin əyani sübutudur.

# Qış fəslində bölgələrdə otellərin doluluq səviyyəsi necədir?

“Məlum olduğu üzrə insanların ən çox istirahətə yollandığı fəsil yaydır. Yaydan sonra insanlar işə başlayır və müəyyən dərəcədə başları öz işlərinə qarışır. Qış sezonunda da növbəti istirahət planlaşdırılır”. Bu sözləri SİA-nın sorğusuna cavab olaraq Azərbaycan Turizm Agentlikləri Assosiasiyanın İdarə heyətinin sədr müavini Əhməd Qurbanov deyib.

Onun sözlərinə görə, qış fəsli, eyni zamanda, Yeni İl bayramına təsadüf etdiyi üçün, əsasən, insanlar bu zaman istirahətə üstünlük verirlər: ”Həm də Yeni İldə daha çox qeyri-iş günlərinin olmasını nəzərə alsaq, həmin bu ərəfəyə istirahətlərini təyin edirlər ki, daha rahat şəkildə dincəlsinlər.

Hal-hazırdakı vəziyyətdə görürük ki, koronavirus pandemiyasından sonra insanlar artıq daxili turizmdən istifadə etməyə üstünlük verirlər. Daha çox bölgələrə üz tuturlar və həftəsonları bölgələrdəki otellərin doluluq səviyyəsinə nəzər saldıqda müşahidə edirik ki, bu, maksimum həddədir. Həftəiçi vaxtlarda da 50-60 faiz səviyyəsində doluluq müşahidə edirik”. Əhməd Qurbanov sözlərinə belə davam edib: ”Bu, onu deməyə əsas verir ki, vətəndaşlarımızın bir çoxu bölgələrimizdən razı şəkildə istirahət edirlər. Bu da sevindirici bir haldır ki, bölgələrimizi daha yaxşı tanıyırlar. Bundan əlavə biz xarici ölkələri də nəzərə alsaq görərik ki, insanlar qışda 2 qrupa bölünür. Bir qrup insan dağ-xizək turizmini sevirlər və bunun üçün soyuq ölkələrə üz tuturlar. Bir qrup insanlar da daha çox ölkəmizdə soyuq olduğu üçün isti bölgələrə üz tuturlar. İsti bölgələr dedikdə, Dubay, Misir və Birləşmiş Ərəb Əmirlikləri nəzərdə tutulur.



*QURUM RƏSMİSİ AÇIQLADI*

Bundan əlavə Avropaya da üz tuturlar. Buranın bir çox ölkələrinə gediş-gəliş mümkündür. Daha çox səfər Monteneqroyadır. Son zamanlar bura üstünlük verilir.

Təbii ki, qardaş Türkiyə də vətəndaşlarımızın sevimli turizm məkanlarından biridir və hər zaman bu istiqamətə gediş olur. Bütün bunları nəzərə alsaq, vətəndaşlarımızın bir hissəsi xaricdə, daha çox hissəsi isə bölgələrimizdə istirahət etməyə üstünlük verir. Hal-hazırda da tur paketlərinin satışı davam edir. Dekabr ayı müddətində Şahdağ və Tufandağ kimi qış turizm komplekslərinə gedişlərin sayı çoxdur”.

***Ayşən Vəli***

İqtisadiyyatımızın

# “Şəki-Oğuz”

## Aqroparkı aqrar sahənin inkişafına töhfələrini verməkdədir

**Ölkəmizdə yüksək iqtisadi inkişafa istiqamətləndirilən siyasət aqrar sahənin, sahibkarlıq fəaliyyətinin daha da genişlənməsinə və qeyri-neft sektorunun sürətli inkişafına səbəb olub. Bu, dövlət başçısının da qeyd etdiyi kimi, iqtisadiyyatın neft amilindən asılılığına son qoyulması deməkdir.**

Bu gün ölkə iqtisadiyyatı özünün mühüm inkişaf mərhələsini yaşayır. Həyata keçirilən irimiqyaslı islahatlar, bu sahədə imzalanan fərman və sərəncamlar, qəbul edilən qərarlar, reallaşan dövlət proqramları sayəsində iqtisadiyyatın artım göstəriciləri ildən-ilə yüksəlir. İqtisadiyyatımızın əsas istiqamətlərindən olan aqrar sahənin inkişafı isə artıq öz töhfələrini verməkdədir.





### 11 min hektarlıq qoz, badam və zeytun bağları

Azərbaycanın zəngin təbiəti, müxtəlif iqlim qurşaqlarına malik olması ölkəmizdə bütün növ meyvə-tərəvəzin yetişdirilməsinə, yüksək məhsuldarlığa imkan verir. Ulu Yaradan sanki bu torpaqlara öz qələmi ilə xüsusi çalar qatmış, hər bölgəmizi meyvə-tərəvəzin bir növünə ”vətən” etmişdir. Meyvə-tərəvəzlərdən söz düşəndə həmin an almanın, şaftalının, narın, əriyin, zeytunun, kartofun, pomidorun, eləcə də qoz, fındıq və badamın hansı bölgənin təbiətinə, havasına, suyuna vurğunluğu da söhbətin mövzusu olur. Lakin öz ”vətənləri” ilə yanaşı, bütün meyvə və tərəvəz növlərinin əkini ilə ölkəmizin bütün rayonlarında məşğul olunur. Bu gün bazarlarımızdakı bolluq zəhmət adamlarının torpağa tər verib, əvəzində zər almasının nəticəsidir.

Ölkə bazarlarındakı bolluğa xidmət edən subyektlərdən biri də Oğuz rayonunda ”Aqroinkişaf 2017” Məhdud Məsuliyyətli Cəmiyyətinin (MMC) ”Şəki-Oğuz” Aqroparkıdır.

Şəki rayonunun ərazisində 9700 hektar və Oğuz rayonunun ərazisində 1300 hektar olmaqla, ümumilikdə 11 min hektar sahədə yaradılmış Aqropark bağçılıq və əkinçilik üzrə fəaliyyət göstərir. Burada əsasən qoz, badam və zeytun bağları salınır və taxıl bitkiləri əkilir. Layihənin ümumi dəyəri 30 milyon manatdır. Zəruri infrastrukturun yaradılmasına 67,8 milyon manat dövlət əsaslı vəsaiti qoyulmuşdur.

2017-ci ildən başlayaraq ”Aqroinkişaf 2017” MMC tərəfindən Azərbaycanda sənaye üsulu ilə qoz istehsalını həyata keçirmək üçün ABŞ-ın fermer təsərrüfatlarının və Avstraliyanın ”Webster” şirkətinin təcrübəsi əsas götürülüb. Aqroparkda 2 min hektar ərazidə damcı suvarma sistemi qurulub, 3 meteostansiya, ofis binaları, fitolaboratoriya, ting istehsalı üçün soyuducu kameralar, mexanizasiya sahələri və anbarlar tikilib.

### Dövlətimizin başçısı Aqroparkın ərazisində ağac əkib

Prezident cənab İlham Əliyev dekabrın 2-də Oğuz rayonuna səfəri çərçivəsində ”Şəki-Oğuz” Aqroparkında yaradılan şəraitlə tanış olmuşdur. Dövlətimizin başçısına Aqroparkda yetişdirilən məhsullar təqdim edilmiş və məlumat verilmişdir ki, ərazidə min hektarlıq badam bağının salınması işlərinə başlanılıb. Hazırda 4 badam növü üzrə 160 hektar bağ salınıb və onun ilin sonunadək 300 hektara çatdırılması nəzərdə tutulub. Bu il ilk dəfə olaraq ”AzBadam” şirkətinə 1,2 ton məhsul satılıb. Qeyd olunmuşdur ki, hazırda 2 zeytun növü üzrə 225 hektardan çox zeytun bağları salınıb və onun 300 hektara çatdırılması nəzərdə tutulub. ”Zirə Zeytun” şirkətinə ilk olaraq 2,6 ton zeytun satılıb. Burada kiçikhəcmli zeytun yağı emalı sahəsinin yaradılması da nəzərdə tutulub.

Məlumat verilib ki, 9 min hektar sahədə yüksəkkeyfiyyətli buğda istehsalı təşkil edilib, 30 min tonluq silos qurğuları tikilib və lazımı infrastruktur qurulub. Görülən aqrotexniki tədbirlər nəticəsində hektardan orta məhsuldarlıq 1,5 ton, ayrı-ayrı hallarda 4 ton təşkil edib. Təsərrüfatı yüksəkkeyfiyyətli toxumla təmin etmək üçün ildə 2 min tona yaxın toxum yetişdirilərək emal olunur.

Hazırda 160 nəfər daimi və 200 nəfər mövsümi iş yerlərinə cəlb edilib. Təsərrüfat GPS qurğuları quraşdırılmış 31 traktor, 4 kombayn, müasir tipli 4 çiləyici, 55 müxtəlif qoşqu və avadanlıqlarla təmin olunub. Dövlətimizin başçısının Aqroparkın ərazisində ağac əkməsini rəmzi mənası ilə yanaşı, həm də parkın gələcəkdə daha da genişləndirilməsi, məhsuldarlığının artması ilə aqrar sahənin inkişafına töhfəsi kimi də dəyərləndirmək olar.

### Yeni suvarma suyu Aqropark ərazisinə həyat verəcək

Su həyatdır. Kənd təsərrüfatının inkişafında, məhsuldarlığın artmasında əsas şərtlərdən birincisi sudur. Su olan yerdə həyat vardır. Suvarma suyunun olması zəhmət adamlarının əməyinin hədər yerə getməyəcəyinə, onların, necə deyərlər, bir əkib, min götürəcəklərinə təminatdır. Təbii ki, əkinçilik və bağçılıqda ərazilər genişləndikcə, suvarma suyuna olan ehtiyac da çoxalır. Bu mənada dekabrın 2-də dövlətimizin başçısı ”Şəki-Oğuz” Aqroparkının torpaq sahəsinin suvarma suyu ilə təmin edilməsi üzrə görülmüş işlərlə də tanış olmuşdur.

Məlumat verilmişdir ki, ”Şəki-Oğuz” Aqroparkının torpaq sahələrini suvarma suyu ilə təmin etmək üçün işçi layihəsi ”Azdövsutəslayihə” İnstitutu tərəfindən tərtib olunub. Layihənin ümumi dəyəri 58 min 998 manatdır.

Bu məqsədlə Şəki rayonu ərazisində Türyançay üzərində saniyədə 109,6 kubmetr suötürmə gücü olan baş suqəbuledici qurğu, sudurulducu hovuz və onu qidalandıran nov kanal, düzbucaqlı beton kanal, nasos stansiyasının su götürdüyü hovuz, 4 aqreqatlı stasionar nasos stansiyası, 8,142 kilometr uzunluğunda magistral basqılı boru kəməri, tutumu 700 min kubmetr olan məcradan kənar sututar, gil əsaslı dəmir-beton üzlüklü torpaq bənd, qurğularla birlikdə 25,150 kilometr uzunluğunda təzyiqli magistral və paylayıcı boru kəmərləri, səth sularının kənarlaşdırılması üçün 17,6 kilometr uzunluğunda açıq kollektor və suyığıcılar tikilib. Eyni zamanda, ”Azərenerji” Açıq Səhmdar Cəmiyyəti tərəfindən nasos stansiyasının xarici elektrik təchizatı üzrə 14 kilometr uzunluğunda 35 kVt-luq ikidövrəli elektrik xətti və 16 min kVt gücündə 2 transformator yarımstansiyası inşa edilib.

Oğuz rayonu ərazisində isə bu məqsədlə Ağçay üzərində suqəbuledici qurğu inşa edilib, 10,2 kilometr uzunluğunda metal boru, 160 metr uzunluğunda təmizləyici polad boru xətləri çəkilib və tutumu 2500 kubmetr olan basqılı su hovuzu tikilib. Dövlətimizin başçısı aqroparkın torpaq sahəsini suvarma suyu ilə təmin edən qurğuları işə salmışdır.

### ”Şəki-Oğuz” Aqroparkında yeni zavodun təməli qoyulub

Prezident cənab İlham Əliyev dekabrın 2-də Oğuz rayonunda həm də ”Şəki-Oğuz” Aqroparkının qoz məhsulunun qərzəkdən təmizlənməsi, yuyulması və qurudulması zavodunun təməlini qoymuşdur.

Dövlətimizin başçısına zavodun layihəsi barədə məlumat verilərək bildirilmişdir ki, əldə olunmuş məhsulun beynəlxalq standartlara uyğun şəkildə satışını təşkil etmək məqsədilə qozun yuma, qurutma, çeşidlənmə və qablaşdırma zavodu ABŞ şirkəti ilə birgə layihələndirilib və avadanlıqla təchiz edilməsi üçün müqavilə bağlanıb. İki istehsal xətti yaradılacaq zavodun tikintisi üçün 4 hektar ərazi ayrılıb.

Qeyd edilmişdir ki, ümumilikdə 2 min hektar bağdan ilkin olaraq 10 min ton qoz istehsal edilməsi nəzərdə tutulub. Eyni zamanda, qoz növləri üzrə tingçilik təsərrüfatı yaradılıb. Məhsulların yığılma və qurudulma vaxtı 40 gündür. Qoz məhsulunun qurudulması üçün nəzərdə tutulmuş 80 metal qutunun həcmi 400 tondur. Zavodda həmçinin ilkin olaraq 40 yeni iş yerinin yaradılmasının nəzərdə tutulduğu da bildirilmişdir. Bu da yeni iş yerlərinin açılması və vətəndaşların məşğulluğunun təmin olunması istiqamətində təqdirəlayiq haldır.

### inkişafı naminə...

1990-cı illərin əvvəllərində iflasa uğramış iqtisadiyyatımız müstəqilliyimizin bərpası illərindən sonra ötən dövr ərzində ilbəil gücləndirilmiş, inkişaf mərhələsinə qədəm qoymuşdur. Bunu ötən illərin iqtisadi yüksəlişlə bağlı statistikasında da görmək mümkündür. 90-cı illərdə Azərbaycanın SSRİ-nin tərkibindən çıxması ilə ölkədə süni şəkildə yaradılan sosial-iqtisadi tənəzzül insanların maddi rifah halının aşağı səviyyəyə enməsi ilə yanaşı, onların iş yerlərini itirmələri ilə də nəticələnmişdi. Bütün bunlar isə ümumi əhali rifahına böyük zərbə endirmişdi. Əmək haqlarının az olması, iş yerlərinin bağlanması, ərzaq qıtlığı həmin illərin bu gün xatırlanan ən acınacaqlı anlarıdır.

Əsası ümummilli liderimiz Heydər Əliyev tərəfindən qoyulan iqtisadi inkişaf strategiyasının ötən illər ərzində ölkəmizdə uğurla həyata keçirilməsinin nəticələrini bu gün həyatımızın bütün sahələrində hiss edirik. Ölkədə torpaq islahatının aparılması, torpaqların öz sahiblərinə qaytarılması yeni iş yerlərinin açılması və əhalinin məşğulluğunun təmin olunmasında mühüm amil oldu. Kənd zəhmətkeşlərinə istehsal etdiyi məhsulu satmaları üçün şəraitin yaradılması, imtiyazların və uzunmüddətli kreditlərin verilməsi kəndli təsərrüfatlarının yaranmasına və sahibkarlığın inkişafına yeni üfüqlər açdı.

Ölkənin gələcəyə hesablanmış prioritetlər əsasında idarə olunması iqtisadi gücümüzü artırdı. Bunun nəticəsidir ki, təməli qoyulan bu zavod kimi hazırda ölkəmizdə yüzlərlə istehsal müəssisəsi fəaliyyət göstərir. Azərbaycan artıq yüzlərlə adda məhsul ixracatçısıdır. Yaxın gələcəkdə o məhsulların sırasına bu zavodun istehsalı olan qoz da əlavə olunacaq.

Ölkəmizdə qoz bağları sahələrinin daha da genişləndirilməsinə və bu zavodun ardınca neçə-neçə zavodların açılacağına böyük ümidlər bəsləyirik. Çünki bağlarımız nə qədər çox olarsa, istehsal zavodlarımız da bir o qədər çox olar. Bağlardan zavodlara daşınan məhsul isə ixrac üzrə ölkəmizi dünyada birinci edər.

*Mətanət MƏMMƏDOVA*



TƏRS BAXIŞ+ÖZƏL

# Rusiya Qarabağın qapısını çöldən bağlamağa məhkumdur!

## Qızıl yataqlarının çapılıb-talanmasında, istismarında üzə çıxan faktlar dəhşət saçır



**Rusiya sülhməramlıları kontingentinin (RSK) istər 20 yanvar 1990-cı ildəki sovet imperiyasının Bakıda törətdiyi qırğın səbəbkarlarına, istərsə də 1992-ci ildə Xocalı soyqırımının baş verməsində bilavasitə iştirak etmiş bədnam 366-cı alayın cəlladlarına bənzədilməsi özünü bu dəfə Qarabağda nümayiş etdirməkdədir. Bəli, zaman, dövran, hətta Rusiya dövlət quruluşu dəyişsə də, məqsəd və imperiya maraqları dəyişilməz olaraq qalmaqdadır. Biz bunu Ukraynada da müşahidə edirik. Lakin...**

Lakin daha bir danılmaz fakt budur ki, əgər Kreml həmin maraqlarının bu dəfə Qarabağda, müstəqil Azərbaycan torpaqlarında reallaşdşrılacağını hesab edirsə, dərindən, kökündən yanılır və bu günkü Rusiya artıq daxili parçalanmalar və öz içində müstəqil dövlətlərin qurulması baxımından ciddi təhlükələr qarşısındadır. Bu baxımdan, "yaralı ayı" haraya gəldi, necə gəldi ağız atır - aqressiya, yalan, vədinə əməl etməmək və s. kimi oyunbazlıqları, ssenariləri ilə...

### Kreml Qarabağda yeni eskalasiyanın yaradılmasına təhriklər edir

Bu gün Qarabağda üzərinə götürdüyü sülhməramlılıq missiyasını bədməramlılıq, ya da sülh MƏRAMSIZLIQ cəhətəri ilə dəyişən RSK və onun yararsız komandanı, general Volkov ona və ölkəsinə etibar edilmiş səlahiyyətlərini nəinki aşır, üstəlik, işğalçılıq məqsədlərini açıq-aşkar və Kremldən aldığı əmrləri əsasında sərgiləyir. Sözün əsl mənasında, Qarabağda yeni eskalasiyanın yaradılmasına təhriklər edir.

Görünür, Azərbacan Prezidenti İlham Əliyevin son vaxtlara qədər RSK-nın fəaliyyətinə məqbul qiymət verməsi və bunu Rusiya Federasiyasının dövlət başçısı Vladimir Putinə bildirməsindən sonra RSK rəhbərliyinin ayağı yer almağa başlayıb. Amma bu dövr də artıq geridə qaldı və bundan sonra belə olmayacaq!

### RSK bundan sonrakı fəaliyyətini də eyni məcrada davam etməyi qərarlaşdırıbsa, bu, ona çox baha başa gələ bilər

Digər tərəfdən, hazırkı mərhələdə Ermənistanın Azərbaycanın ərazi bütövlüyünü tanıyıb-tanımaması danışıqlar mövzusudur. Fəqət, Rusiya nə edir və nə etməyi düşünür? Fakt budur ki, RSK bundan sonrakı fəaliyyətini də eyni məcrada davam etməyi qərarlaşdırıb, bu, ona çox baha başa gələ bilər. Ən yaxşı halda dəvət olunduğu kimi, vaxtından əvvəl Qarabağdan çıxarılmasına qədər. Elə rusların özlərinə aid bir məsəl var, "salamı necədirsə, cavabı da o cürdür" ("kakoy privet, takoy otvet")

### Rusiya açıq-aşkar Qarabağda təxribatlar törədir və nəinki indi, elə gəldiyi ilk günlərdən başlayaraq

Maraqlıdır ki, Rusiya, daha dəqiq desək, Putin Rusiyası fikirlərini açıq-aydın izah etmir. Misal üçün, ABŞ və Fransa öz səfirlərini Şuşaya getməkdən çəkindirir və bununla açıq-aşkar məqsədlərini nümayiş etdirirlər. Bakı isə bu məqsədləri diplomatik və hüquqi sahədə araşdırır və həmin məqsədlərin doğru olmadığını bəyan edir. Gec, ya da tez amerikalı və fransız siyasətçilər də "paşa-paşa" Şuşaya gələcəklər. Beynəlxalq hüquq var və ona əməl də ediləcək.

Bəs Rusiya? Rusiya açıq-aşkar Qarabağda təxribatlar törədir və nəinki indi, elə gəldiyi ilk günlərdən başlayaraq. İndi isə bu təxribatlar daha da artıb. Qızıl və s. faydalı qazıntı yataqlarımız çapılıb-talanır və bu məsələdə əsas vasitəçiliyi RSK, onun komandanlığı icra edir, təbii ki, Moskvadan verilən tapşırıqlar əsasında.



### "Base Metals", "Valeks", VTB triosu - Qarabağı talayan üçlük!

Artıq bıçaq sümüyə dirənib və ona görə də yuxarıda qeyd olunduğu kimi, heç nə əvvəlki kimi olmayacaq. Ona görə olmayacaq ki, Bakının əlində danılmaz faktlar var:

Qarabağda molibden və qızıl yataqlarının qanunsuz istismarı ilə məşğul olan "Base Metals" "Valex" Şirkətlər qrupu tərəfindən yaradılıb, şirkətin başında dayanan isə Valeri Mejlumyan adlı ermənidir və bu qrup Rusiyanın dövlət bankı olan VTB tərəfindən maliyyələşdirilir (?!).

VTB-nin adi səhmlərinin 60,9%-i Rusiya Federasiyasına məxsusdur, qalan 39,1%-i isə sərbəst dövriyyədədir. İmtiyazlı səhmlər də daxil olmaqla, qrupun nizamnamə kapitalının 92%-i Rusiya hökumətinin nəzarəti altındadır!

### Aktivlərin həcminə görə Rusiyada ikinci, nizamnamə kapitalına görə isə birinci bankdır və bu da son deyil...

Açıq-aydın dəlil budur ki, problem yalnız RSK-nın Qarabağdakı komandanı Volkovda da deyil, ona görə ki, "Base Metals" Qarabağda 2002 ildən bu günə qədər Rusiya hökumətini maliyyələşdirilməklə qanunsuz fəaliyyət göstərir və acınacaqlı, əlahəzrət daha bir fakt - Rusiya yanız indi deyil, bu yataqlar işğala məruz qalandan və qanunsuz istismar olunduğu zamandan Kremlin ağzına "yağlı əppək" atır!

Beləliklə, bütün bu və bu kimi digər məsələlərdə Kremlin və Putin Rusiyanın (elə ondan əvvəlki Rusiyanın da) əli var. Rusiya rəsmiləri cinayətkar ermənilərlə birlikdə Azərbaycanın qızıl yataqlarını çapıb-talayır, istismar edir, oradan gələn gəlir isə "Valex" şirkətlər qrupunun tabeliyində olan xarici ölkələrdəki ofşorlara köçürülür. Xüsusən də, Lixtenşteyn və Kiprdəki ofşor ərazilərə. Nəticədə isə bu cinayətkar əməllərin bir tərəfi digər tərəflərə qədər uzanıb-gedir və artıq vaxtdır - Rusiya Qarabağın qapısını çöldən bağlamağa məhkumdur!

***Rövşən RƏSULOV***

# Vaxtı keçmiş ət məhsullarını necə bilmək olar?





ARAŞDIRMA

**Aydındır ki, insan sağlamlığının əsas şərtlərindən biri normal qidalanma və qida təhlükəsizliyinə əməl olunmasıdır. Xüsusən, son illər sağlamlıq üçün fəsadlar yarada biləcək təhlükəli maddələrin qidanın tərkibində qalmaq, sonradan yaranmaq və ya qidanın tərkibinə daxil olmaq ehtimalı daha da çoxalıb. Ərzaq xammalının istehsalı və saxlanması, daşınması, emalı və qablaşdırılması, eləcə də hazır məhsulun anbarlarda və ticarət şəbəkələrində saxlanması və daşınması mərhələlərinin hər birində belə ehtimallar var. Odur ki, məhsulun insan sağlamlığı üçün zərərli olan bioloji, kimyəvi və fiziki təhlükəli faktorlardan azad olmasına ciddi ehtiyac var.**



Son vaxtlar kütləvi zəhərlənmə hadisələrinin baş verdiyi şadlıq evlərində bu, bir daha özünü göstərir. Həmin sarayların əksəriyyətində bişmiş və çiy qidalar bir otaqda hazırlanır və saxlanır. Özü də heç bir sanitariya-gigiyena qaydalarına əməl olunmadan, baxmayaraq ki, bu, yolverilməzdir, yəni, ayrı-ayrı məhsullar tamamilə ayrı-ayrı avadanlıqlarla, ayrı-ayrı temperaturda hazırlanmalı və saxlanmalıdır. Quş əti ilə zəhərlənmə ən çox iki növ bakteriya səbəb olur: stafilokok və salmonella.Çiy toyuq uzun müddət isti saxlanılırsa, birinci növ mikroorqanizmlər aktiv çoxalmağa başlayır. Eyni zamanda, yüksək temperaturda hətta emalını neytrallaşdıra bilməyən enterotoksinlərin aktiv bir şəkildə sərbəst buraxılması başlayır. İnsan orqanizminə daxil olan bu maddələr mədə-bağırsaq traktında iltihab prosesinin başlamasına səbəb olur. Şiddətli intoksikasiya inkişaf edir.

Toyuq ətindən zəhərlənmələr damar tonusuna, sinir sisteminin işinə və mədə-bağırsaq traktının fəaliyyətinə mənfi təsir göstərir.

Əksər hallarda toyuq zəhərlənməsinin simptomları xarab ət yedikdən sonra 3-4 saat ərzində görünür. Bədənin reaksiyasının şiddəti fərdi xüsusiyyətlərdən asılıdır. Hər şey yüngül bir pozğunluqla başlayır, lakin tədricən patologiyanın əlamətləri artır.

Simptomlar hər hansı bir zəhərlənmədə olduğu kimi (kolbasa zəhərlənməsi haqqında) həzmsizlik və qida intoksikasiyasına bənzəyir.

Qida zəhərlənməsinin qarşısını almaq üçün qidanı diqqətlə seçməlmədir. Amerika alimləri qərara gəliblər ki, toyuq zəhərlənməsi qida intoksikasiyası axınında əsas yerlərdən biridir. Bu seqment ümumi halların təxminən 17%-ni təşkil edir. İntoksikasiyaların əksəriyyəti bakterioloji təsirlər və ya viruslar, yığılmış toksinlər səbəbindən baş verir.

Bəs bu sadaladığımız zəhərlənmələrə səbəb olan vaxtı keçmiş ət məhsullarını necə bilmək olar?

SİA mövzu ilə bağlı araşdırma edib. Ekspertlərin qənaətinə görə, iaşə obyektlərində və evlərdəki zəhərlənmələrin bir səbəbi də qidanın hazırlanması prosesinin düzgün təşkil edilməməsidir.

Ümumdünya Səhiyyə Təşkilatı tərəfindən tez xarab olan məhsulların saxlanma müddəti və rejimi müəyyən olunub. Buna əməl olunarsa, məhsul keyfiyyətini qoruyub saxlamış olur.

Qida üzrə baş mütəxəssis Ağa Salamov: "Əgər ət kəsilirsə, 3 saatdan çox otaq temperaturunda və ya çöl tempraturunda 5 dərəcədən yuxarı istilik varsa və ət bu istilikdə qalırsa, artıq o mikrobioloji çirklənməyə məruz qalır. Üç saatdan sonra yuyub istifadə etsələr belə, bəzi orqanizmi zəif olan insanlarda qida zəhərlənməsi ortaya çıxır.

Vaxtının keçməsini rənginin qaralmasından bilmək olur, çünki ətdə oksidləşmə gedir. Təbii ki, 3 saat ərzində özünü büruzə vermir. Ət kəsilən kimi soyuducuya qoyulmalı və yaxud bişirilməlidir. İkinci tərəfi ətə əlimizi vurduqda rəngində, qoxusunda hər hansı dəyişiklik varsa və şirə verirsə, o ətin vaxtı keçib deməkdir. Belə hallarda bir çox fəsadlar yaranır, qida zəhərlənmələri baş verir. Əgər bu ət toyuq ətidirsə zəhərlənmə ölümlə də nəticələnə bilir. Bu yaxınlarda toyuqdan zəhərlənən insanların şahidi olduq. İstər xaricdə, istərsə də ölkəmizdə toyuqdan zəhərlənib ölənlər daha çoxluq təşkil edir".

***Havar Şəfiyeva***

# Artan İran-Ermənistan əlaqələri Azərbaycanın qələbəsi ilə bağlıdır

**"İranla Ermənistanı birləşdirən heç bir tutarlı səbəb olmasa da, təəssüf ki, regionda bu iki dövlətin fəaliyyəti regional sülhə, təhlükəsizlik və sabitliyə təhdid törədir". Bu sözləri SİA-ya açıqlamasında politoloq İlyas Hüseynov deyib.**



Onun sözlərinə görə, qeyd etmək lazımdır ki, İranın Qafanda, eləcə də Ermənistanın Təbrizdə konsulluq açmaq niyyətləri məhz diplomatik sahədə hər iki dövlətin fəaliyyətini nümayiş etdirsə də, bu konsulluq yarışı ilk növbədə Azərbaycana və Türkiyəyə qarşı yönəlib: "Digər tərəfdən bu iki dövlətin açıq-aşkar şəkildə dostluq əlaqələrini nümayiş etdirməsi, Paşinyanın Seyid İbrahim Rəisi ilə görüşləri intensiv xarakter alır. Bu fəaliyyət xüsusilə, Vətən müharibəsindən sonra daha geniş həcmdə hiss olunur. Təbii ki, Ermənistanla İran arasında münasibətlər ilk növbədə Azərbaycanın II Qarabağ müharibəsində qazandığı qələbə ilə bağlıdır".

Politoloq sözlərinə davam edərək həmçinin qeyd edib ki, son dövrlər 27 Xüsusi Xidmət Orqanının əməkdaşının İran tərəfindən separatçı rejimə göndərilməsi, ardınca 600 İran istehsalı olan raketin Ermənistana verilməsi böyük narahatlıq doğurur: "Bu raketlərin göndərilməsi regionda güclü orduya sahib olan Azərbaycanla Ermənistan arasında balansın yaranmasına yönəlib. Lakin vurğulamaq lazımdır ki, Azərbaycan bu seqmentdə İsrail istehsalı olan "Spayk" tank əleyhinə idarə olunan raketlər kompleksinə malikdir, hansı ki bu raketlər öz sinfində ən güclü hesab olunur. Ona görə də İranın yardımı böyük ölçüdə nəyisə dəyişməsə də, bir növ Azərbaycanın ərazi bütövlüyü və sərhədlərin toxunulmazlığına təhdid kimi qiymətləndirilə bilər. İranla Ermənistan arasında olan yaxınlıq rəsmi Bakı tərəfindən də diqqətlə izlənilir və buna uyğun addımlar atılır".

***Ləman Əlizadə***

# Dünya liderləri Heydər Əliyev haqda nələr deyib?

**12 dekabr Azərbaycan xalqının ümumilli lideri Heydər Əliyevin anım günüdür. Bu böyük şəxsiyyət haqda çox yazılıb, deyilib, danışılıb. Biz bu yazıda sizlərə dünyanın bir sıra nüfuzlu siyasətçilərinin müxtəlif vaxtlarda Heydər Əliyev haqda fikirlərini təqdim edəcəyik.**

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

Yazı Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyi ilə "Azərbaycançılıq ideyasının təbliği: dövlət müstəqilliyimizin bərpasının 30-cu ili- azərbaycançılıq ideologiyası bizi birləşdirən əsas dəyərdir" istiqaməti çərçivəsində hazırlanıb.



Bütün dünyada layiqli hörmət və böyük nüfuz qazanmış görkəmli dövlət xadimi həyatdan getmişdir. Uzun illər ərzində Heydər Əlirza oğlu Əliyevin səmərəli fəaliyyəti xalqlarımızın ümumi tarixi ilə bilavasitə bağlı olmuşdur. O, Rusiya və Azərbaycanın strateji tərəfdaşlığının təməlini qoymuş, dostluğumuzun və qarşılıqlı anlaşmamızın möhkəmlənməsinə böyük şəxsi töhfə vermişdir.

**Vladimir Putin, Rusiya Federasiyasının prezidenti.**

Heydər Əliyev Cənubi Qafqazda uzun müddət ərzində ən əsas şəxsiyyət olmuşdur. Bu günlərdə Amerika Birləşmiş Ştatları və Azərbaycanın bəhrələndiyi dostluq əlaqələrinin qurulmasında və Azərbaycanın müstəqilliyinin qorunmasında onun şəxsi səyləri həyati əhəmiyyət daşımışdır. Məhz onun rəhbərliyi altında Amerika Birləşmiş Ştatları və Azərbaycan, Əfqanıstan və İraqdakı əməliyyatlar da daxil olmaqla, terrorizmə qarşı mübarizədə tərəfdaş olmuşlar. Dağlıq Qarabağ faciəsinin sülh danışıqları vasitəsilə ədalətli və uzunmüddətli həllinə nail olmaq sahəsində onun nümayiş etdirdiyi qətiyyət regionda sülh və sabitliyin saxlanmasında mühüm əhəmiyyət kəsb etmişdir. Eyni zamanda, onun mövqeyi və göstərdiyi səylər Azərbaycanın iqtisadi inkişafını möhkəmləndirən böyük həcmli xarici sərmayələrin cəlb olunmasında əsas rol oynamışdır. Bu nailiyyətlər milyonlarla azərbaycanlının həyatını yaxşılaşdırmış və Azərbaycanın iyirmi birinci əsrə müasir dövlət kimi daxil olmasına imkan yaratmışdır.

**Corc Buş, Amerika Birləşmiş Ştatlarının prezidenti.**





Beynəlxalq aləmdə tanınmış siyasətçi, Çin Xalq Respublikasına dostluq münasibəti bəsləyən, Çin xalqının qədim dostu olan cənab Heydər Əliyev Çin-Azərbaycan dostluq münasibətlərinin inkişafında böyük rol oynamışdır.

**Xu Szintao, Çin Xalq Respublikasının Sədri.**

Bu qeyri-adi şəxsiyyət Azərbaycanı çiçəklənmə yoluna gətirib çıxarmışdır. Müxtəlif görüşlərimiz zamanı, xüsusilə Dağlıq Qarabağ münaqişəsi ətrafında müzakirələr apararkən, münaqişənin sülh yolu ilə həllində onun cəsarətini, müdrikliyini və qətiyyətini yüksək qiymətləndirdim.

**Jak Şirak, Fransa Respublikasının prezidenti.**

Heydər Əliyev Azərbaycanın böyük lideri idi. O, böhranlar dövründə öz ölkəsinə sabitlik gətirdi. Azərbaycan xalqı onun qoyduğu irs ilə fəxr edə bilər.

Onun Prezident kimi fəaliyyəti dövründə ölkələrimiz arasında münasibətlərdə tərəqqi yarandı və Azərbaycan Avropa ilə əlaqələrini daha da yaxınlaşdırdı. Onun 1998-ci ilin iyulunda Britaniyaya uğurlu səfəri, xüsusilə də, Dauninq küçəsi 10 ünvanında yerləşən iqamətgahımda bizim görüşümüz yaxşı yadımdadır. O, Azərbaycanla Birləşmiş Krallıq arasında hazırda mövcud olan güclü əlaqələrin təməlini qoydu. Fəxr edirik ki, Britaniya şirkətləri tərəfindən qoyulan böyük sərmayələr vasitəsilə Birləşmiş Krallıq Azərbaycanın gələcək tərəqqisinə töhfələr verir.

**Toni Bleyer, Böyük Britaniyanın Baş naziri.**

Heydər Əlirza oğlu Azərbaycan Respublikası üçün, MDB-nin inkişafı üçün, Qazaxıstan və Azərbaycan xalqlarının çoxəsrlik dostluğunun möhkəmlənməsi üçün çox işlər görmüşdür.

**Nursultan Nazarbayev, Qazaxıstan Respublikasının prezidenti.**

Uzaqgörən və istedadlı idarəçiliyi sayəsində Azərbaycanın hər sahədə inkişaf etməsini və bugünkü nüfuzlu mövqeyə çatmasını təmin edən Heydər Əliyevi şəxsən tanıdığıma görə böyük şərəf və xoşbəxtlik hissləri keçirirəm.

Azərbaycanın əmin-amanlığı və çiçəklənməsi üçün göstərdiyi səylərlə yanaşı, Heydər Əliyev bütün Qafqaz bölgəsinin sülhün bərqərar olduğu bir məkana çevrilməsi istiqamətindəki fəaliyyəti ilə də daim xatırlanacaqdır.

Heydər Əliyevin dəyərli töhfələri ilə başlanmış müştərək layihələr dost və qardaş dövlətlərimizi bir-birinə daha da yaxınlaşdıraraq, ölkələrimiz arasındakı münasibətlərin sarsılmaz təməllər üzərində qurulduğunu bir daha sübut etmişdir.

**Əhməd Necdət Sezər, Türkiyə Respublikasının prezidenti.**

Mərhum Heydər Əliyev Azərbaycanın xoşbəxtliyi və firavanlığı, bölgədə və dünyada sülh naminə göstərdiyi fövqəladə xidmətlərlə türk və dünya tarixində şərəfli yer tutmuşdur.

**Rəcəb Tayyib Ərdoğan, Türkiyə Respublikasının Baş naziri.**

Heydər Əliyevin Azərbaycanın inkişafında və ölkələrimiz arasında əlaqələrin gücləndirilməsində əvəzsiz xidmətləri olmuşdur. 1998-ci ilin iyul ayında Birləşmiş Krallığa səfəri zamanı onunla olan görüşümüzü çox yaxşı xatırlayıram.

**Kraliça II Elizabet.**

Cənab Heydər Əliyevin regional sülh və dostluğa nail olunması, iki dost, qardaş ölkə olan İran İslam Respublikası ilə Azərbaycan Respublikası arasında əlaqələrin dərinləşdirilməsi yolunda xidmətləri heç vaxt xatirələrdən silinməyəcəkdir. Onun keçən il İran İslam Respublikasına çox səmərəli səfəri ölkələrimizin əlaqələrində dönüş nöqtəsi olmuşdur.

**Seyid Məhəmməd XATƏMİ, İran İslam Respublikasının prezidenti.**

Hörmətli siyasətçi və dövlət xadimi kimi Heydər Əliyevin adı və nüfuzu Azərbaycan Respublikasının beynəlxalq birlikdə qazandığı layiqli yerlə qırılmaz surətdə bağlı olacaqdır. Biz müasir beynəlxalq gerçəklik şəraitində Bolqarıstan-Azərbaycan dostluq münasibətlərinin inkişafına və möhkəmlənməsinə Heydər Əliyevin böyük şəxsi töhfəsini yüksək qiymətləndiririk.

**Georgi Pirvanov, Bolqarıstan Respublikasının prezidenti.**

Azərbaycanın müstəqilliyinin təşəkkülündə və möhkəmlənməsində, beynəlxalq aləmdə nüfuzunun yüksəlməsində, ölkələrimiz və xalqlarımız arasında ikitərəfli münasibətlərin inkişafında və genişlənməsində Heydər Əliyevin tarixi rolu misilsizdir.

**İslam Kərimov, Özbəkistan Respublikasının prezidenti.**

Moldova Respublikasında Heydər Əliyevi həmişə böyük vətənpərvər kimi, ölkələrimiz arasında dostluq münasibətlərinin möhkəmləndirilməsi uğrunda, Avropada və bütün dünyada demokratiya idealları uğrunda, sabitliyin və təhlükəsizliyin qorunub saxlanması uğrunda mübariz kimi tanımış və qiymətləndirmişlər.

**Vladimir Voronin, Moldova Respublikasının prezidenti.**

Heydər Əliyevin simasında Azərbaycan Respublikası uzun illər ərzində ölkənin bütün həyatına dərindən nüfuz etmiş və Azərbaycanın tarixində əbədi yer tutmuş böyük dövlət xadimini itirmişdir. Onun adı ölkənin müstəqilliyinin bərqərar olmasında qazandığı tarixi nailiyyətlərlə daim bağlı olacaqdır.

**Gerhard Şröder, Almaniya Federativ Respublikasının federal kansleri.**

Onun adı doğma torpaqla qırılmaz surətdə bağlıdır. Müstəqil və suveren Azərbaycanın çiçəklənməsi və tərəqqisi, ölkədə ictimai-siyasi vəziyyətin sabitləşməsi və regionda yorulmadan möhkəm sülh axtarışı Heydər Əlirza oğluna bütün dünyada yüksək nüfuz və səmimi hörmət qazandırmışdır. Onun işləri və xidmətləri qədirbilən Azərbaycan xalqının və bütün xoşməramlı insanların xatirəsində əbədi yaşayacaqdır.

**Emoməli Rəhmonov, Tacikistan Respublikasının Prezidenti.**

Qırğızıstanda Heydər Əlirza oğlunu müstəqil Azərbaycanın təşəkkülünə və inkişafına misilsiz töhfə vermiş görkəmli dövlət xadimi, dünya miqyaslı siyasətçi kimi yaxşı tanıyırdılar. Onun rəhbərliyi ilə Azərbaycan Respublikası müstəqil inkişaf yolunda böyük uğurlar qazanmış, dünya birliyinin tanınmış və hörmətli üzvü olmuşdur. Heydər Əlirza oğlu özünün bütün istedad və müdrikliyini, Vətənə məhəbbətini, əməksevərliyini və fədakarlığını Azərbaycanın tərəqqisi işinə həsr etmişdir.

**Əsgər Akayev, Qırğızıstan Respublikasının Prezidenti.**

Görkəmli dövlət xadimi Heydər Əliyevin rəhbərliyi ilə müstəqil Azərbaycan Respublikası son illər dünya birliyində layiqli yer tutmuşdur. Azərbaycanda hüquqi dövlət quruculuğu, iqtisadi islahatların uğurla həyata keçirilməsi sahəsində görülən işləri diqqətlə izləyir və onları dəstəkləyirəm.

**II İohan Pavel, Roma papası.**

Heydər Əliyev böyük şəxsiyyətdir. O, mənim dostum, qardaşımdır. Onun yeri həmişə ürəyimin başındadır.

**Butros-Butros Qali, BMT-nin sabiq Baş katibi.**

Mən Azərbaycanı, Azərbaycan xalqını Heydər Əliyev qədər sevən ikinci adam tanımıram.

Nikolay Baybakov, keçmiş SSRİ Dövlət Plan Komitəsinin sədri.

***Elçin***

# Uşaq evində böyüyən gənclərin sonrakı aqibəti necə olur?

"Uşaq evində olan uşaqlara qayğı göstərmək dövlətimiz və biz vətəndaşların borcudur. Bütün dövlətlərdə də bunu edirlər". Bu sözləri SİA-ya açıqlamasında sosioloq Əhməd Qəşəmoğlu deyib.

Onun sözlərinə görə, bu məsələyə bir az əhatəli yanaşmağa ehtiyac var. Bizim bu uşaqlara qarşı kompleks tədbirlər planı və proqramımız olmalıdır. Amma bu fəaliyyət proqramı bu gün konkret olaraq yoxdur. Onlara ev verməklə iş bitmir. Aydındır ki, uşaqlar evində yaşayan gənclərin, yeniyetmələrin həyat anlayışı və psixologiyası bir başqa olur. Bu insanlar ilk növbədə Azərbaycan vətəndaşıdır. Biz elə etməliyik ki, öz vətəndaşımız dövlət qayğısını özlərində hiss etsin. Bu isə təkcə ev verməklə bitmir. Biz çalışmalıyıq ki, onları elə hazırlayaq uşaq evlərindən azad olunandan sonra onların həm də peşələri olsun. Çox yaxşı olar ki, evləri olanlardan başqa müəyyən bir cəmiyyət olsun, qeyri-hökumət təşkilatları olsun ki, bunlarla müəyyən bir müddət gənc uşaqların ayağa durmaları, həyata adaptasiya olmaları üçün dəstək olmalıdır. Bu uşaqlar oradan çıxanda 17-18 yaşları olur. Bu da onların cəmiyyətə hələ hazır olmadıqlarını göstərir. Ona görə də onların cəmiyyətə adaptasiya olmaları, qaynayıb qarışmaları üçün onlarla ən azı 5 il ərzində nəzarət olmalıdır. Əgər biz onlara ciddi fikir versək, sabah ölkəmiz üçün faydalı vətəndaşlara da çevirə bilərik".



*Ziya Hikmət oğlu*

# Dostuna "Nar"dan hədiyyə göndər!




İndi "Nar" abunəçiləri öz yaxınlarına hədiyyə internet meqabaytları göndərə bilərlər. "Dostuna "Nar"dan hədiyyə göndər" kampaniyası çərçivəsində bütün "Nar" abunəçilərinin öz yaxınlarına 100 MB internet hədiyyə göndərib sevindirmək imkanı var. Bu kampaniyadan istifadə edib dostlarınıza xoş sürpriz etmək tamamilə pulsuzdur.

Kampaniyadan yararlanmaq üçün hədiyyə yollamaq istədiyiniz dostunuzun nömrəsini SMS-lə 760-a göndərmək və ya *760#nömrə#YES şifrəsini yığmaq kifayətdir. Hədiyyə olunmuş meqabaytların istifadə müddəti 5 gündür. Qeyd edək ki, abunəçi kampaniya müddətində yalnız bir dəfə hədiyyə göndərə bilər, lakin alına biləcək hədiyyələrin sayı məhdudlaşdırılmır.

Kampaniya 12 dekabr saat 23:59-a qədər aktivdir. Hər zaman müştəri yönümlülük strategiyasına əsaslanan layihələri ilə abunəçilərini sevindirən "Nar"ın cari kampaniyaları ilə buradan tanış ola bilərsiniz. "Nar" hal-hazırda 2,2 milyon abunəçiyə yüksək keyfiyyətli rabitə xidmətləri göstərməkdədir. "Nar" son 3 ildə Müştəri Loyallığı İndeksinə görə ölkədə lider mobil operatordur. Mobil operator müştəriyönümlülük strategiyasına sadiq qalaraq sərfəli qiymət qarşılığında üstün xidmət təqdim edir.

# Modriç: "Messini dayandırmaq çox çətin olacaq"

Futbol üzrə Xorvatiya millisinin kapitanı Luka Modriç DÇ-2022-nin yarımfinalında Argentinaya qarşı matç barədə fikirlərini



bildirib. Qol.az "Mundo Deportivo"ya istinadən xəbər verir ki, o, rəqibin lideri Lionel Messini saxlamağın çətin olacağını deyib: "Lionel Messi çox böyük fiqurdur. O, rəqibin ən yaxşı oyunçusudur. Messini dayandırmaq bizim üçün çox çətin olacaq. Lakin biz hazırıq və əlimizdən gələni edəcəyik".

Qeyd edək ki, bu gün keçiriləcək Argentina - Xorvatiya matçı Bakı vaxtı ilə saat 23:00-da başlayacaq.

# Yol qəzalarında 2 gündə 5 nəfər ölüb

Həftəsonu Azərbaycanda yol qəzalarında 5 nəfər ölüb. Bu barədə SİA-ya Daxili İşlər Nazirliyinin (DİN) Mətbuat Xidmətin-



dən məlumat verilib.

Bildirilib ki, dekabrın 10-11-də respublikanın avtomobil yollarında ölümlə nəticələnən 5 yol-nəqliyyat hadisəsi qeydə alınıb. Nəticədə 5 nəfər dünyasını dəyişib.

# 40 yaşdan sonra qida rejiminə və həyat tərzinə diqqət edin!

40 yaşdan sonra qida və spirtli içkilərin qəbulu ilə bağlı vərdişləri yenidən nəzərdən keçirmək lazımdır. Mütəxəssislərin fikrincə, bunun səbəblərindən biri metabolik proseslərin yaşla bağlı yavaşlamasıdır. 40 yaşdan sonra zərərli maddələr orqanizmdən daha çətin xaric olur, toxumalar yenidən qurulur. Nüfuzlu tibbi saytlarda dərc edilən məlumatlarda xüsusilə qeyd olunur ki, bundan başqa insulin daha az istehsal olunur, fermentativ fəallıq azalır.

Sadalanmış dəyişikliklər həzm proseslərinə təsir edir - xüsusilə, 40 yaşdan sonra bəzi qida məhsulları, yağlı qida orqanizm tərəfindən daha pis həzm oluna bilər. Nəticədə, adi görünən qida məhsulları mədə-bağırsaq traktında problemlərin olmasını sübut edən xoşagəlməz simptomların əmələ gəlməsinə səbəb olur.

Yaşlandıqca və qocaldıqca insan bədəninin alkoqolu həzmetmə tərzi dəyişir. Onun parçalanması zamanı əmələ gələn toksinlərin xaric edilməsi yavaşlayır - bu onların orqan toxumalarına mənfi təsirini daha əhəmiyyətli edir.

40 yaşdan sonra insan qida rasionunu və həyat tərzini yenidən nəzərdən keçirməlidir. Bu prinsipin ciddiyə alınmaması artıq çəki və bədən həcminin artmasına gətirib çıxara bilər, bu da öz növbəsində bir çox xəstəliklərin inkişafı ilə əlaqələndirilir.



*Baş redaktor:*
**Bəhruz Quliyev**

Ünvanımız:
**Bakı şəhəri,
Üzeyir Hacıbəyov küçəsi, 66.
Şəhadətnamə:№ 022492
http://www.ses-news.az
http://www.sesqazeti.az
E-mail: ses@sia.az**

"ƏLİNCƏ" AZƏRBAYCAN XEYRİYYƏ CƏMİYYƏTİNİN ORQANI.
QƏZET 1991-Cİ İL YANVARIN 11-DƏN ÇIXIR
**Tel: 598-33-90
Faks: 493-11-62**

Redaksiyanın mövqeyi ilə müəllifin mövqeyi üst-üstə düşməyə bilər.

Qəzet bazar və bazar ertəsindən başqa hər gün nəşr olunur

**Tiraj: 3600**